QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 033 (5753) **19 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Xalq hər zaman öz Prezidentinə dəstəkdir!

*Prezident İlham Əliyev Sumqayıtın dənizkənarı bulvarında şəhərin sakinləri ilə görüşüb*

Səh 2




"Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir"




4

Heydər Əliyev Mərkəzində rus avanqard rəssamlarının nadir əsərlərindən ibarət sərgi açılıb



5

Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları



8

"Azərbaycan əleyhinə təbliğat aparan şəxslərə hakimiyyətin tövbə qapısı açıqdır"



6

Günter Ottinger Azərbaycana gəlir



10

"İşğalçı ölkə Azərbaycanın verdiyi dərsi unuda bilmir"



6

6

"Azərbaycanlılarla çeçenləri özündə birləşdirən daha bir amil ümumi Qafqaz evidir"



6

"233 min insanın pensiyasında artım olacaq"



16

"Mançester Yunayted" bu futbolçu üçün 80 milyon avrodan keçməyə hazırdır



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
19 fevral 2019-cu il

# Xalq hər zaman öz Prezidentinə dəstəkdir!

## *Prezident İlham Əliyev Sumqayıtın dənizkənarı bulvarında şəhərin sakinləri ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıta səfəri çərçivəsində burada inşa edilən dənizkənarı bulvarda yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bulvarda görülən işlər barədə məlumat verdi. Dənizkənarı bulvarda Sumqayıt sakinləri dövlətimizin başçısına yaxınlaşaraq söhbət ediblər.***




Sakinlər: Xoş gəlmisiniz bizim Sumqayıta. Siz bizim prezidentlər içərisində seçilən Prezidentimizsiniz. Biz sizinlə fəxr edirik. Allah Sizə cansağlığı versin, bizə bu gözəl şəraiti Siz yaratmısınız.

Prezident İlham Əliyev: Xoş gördük, çox sağ olun, necəsiniz?

Sakin: Hörmətli Prezidentimiz, Sizin bu gəlişiniz Sumqayıt üçün, bizim üçün toybayramdır. Bunun iki böyük amili, bir nəticəsi var. O amilin biri odur ki, hörmətli Prezidentimiz, Ali Baş Komandanımız xalqın arasındadır. İkinci böyük amil ondan ibarətdir ki, ölkəmizin bütün əhalisi, bütün vətəndaşları Prezidentimizin ətrafındadır. Bunun nəticəsi nədir? Nəticə odur ki, xalqla Prezidentin böyük monolit birliyi var. Bəzən elə olur ki, öz ayaqqabısının ölçüsü qədər bir iş görə bilməyənlər bu qədər gözəlliyə, bu qədər inkişafa ağız büzürlər. Amma onlar bu monolit birliyin qabağında dura bilməzlər, qəti dura bilməzlər.



Sakin: Allah Sizi qorusun, cənab Prezident, xahiş edirik, bizim salamlarımızı analar anası, xanımlar xanımı Mehriban xanıma çatdırasınız.

Prezident İlham Əliyev: Mütləq çatdıraram.

Sakin: Möhtərəm Prezidentimiz cənab İlham Əliyev, Siz gündən-günə gözəlləşən, abadlaşan, qocaldıqca cavanlaşan Sumqayıt şəhərinə çox xoş gəlmisiniz.

Cənab Prezidentimiz, mən 50 ildir Sumqayıtda yaşayıram, 85 yaşım var. Mən buraların dününəni yaxşı görmüşəm, qamışlıq, çirkab, şoran çöllər. Buraya heç kim gəlmək istəmirdi, amma bu gün gələn getmək istəmir.

Sakin: Nəinki gələn, biz buradan gözəl ev almışıq, gözəl ev tikdirmisiniz. Çox gözəl, yüksək səviyyədə.

Sakin: Mənim ağlıma gəlməzdi ki, Sizin möcüzə adlandırdığınız Sumqayıt bulvarında mən nəvələrimlə, tay-tuşlarımla gəzim. Allah Sizi var eləsin. Bu yaşımda Sumqayıt bulvarında gəzməyimlə fəxr edirəm.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: Bir şəhid anası kimi, leytenant anası kimi Sizə çox-çox təşəkkür edirəm ki, bütün şəhid ailələrinə yardım etdiniz, kömək etdiniz. Onların başının üstündə həmişə bir ata, oğul, qardaş kimi olasınız.

Prezident İlham Əliyev: Həmişə elə də olacaq. Əmin ola bilərsiniz.

Sakin: Mən zabitəm, Qarabağ döyüşlərində iştirak etmişəm, qaziyəm. Əvvəla, Sizə "Xoş gəlmisiniz!" deyirik, Allah Sizi qorusun. Siz Azərbaycanın başının tacı olan şəhidlərin ailələrini qəbul etdiniz, o duyğulu anları biz indi də yaşayırıq. Bir daha sübut etdiniz ki, həmin yaşlı şəhid ailələrinin bir oğlusunuz, bu gün həddi-buluğa çatan şəhid övladlarına bir böyük qardaşsınız. Allah Sizdən razı olsun. Mən Sizi inandırıram ki, Azərbaycanın hər bir övladı o ərazilərin azad olunmasına canla-başla hazırdır. Vətəni uğrunda canından keçməyə, əlindən gələni etməyə hazırdır. Azərbaycan əsgəri 2016-cı ildə bunu bir daha sübut etdi. Biz hər zaman Sizin ətrafınızdayıq və İnşallah, "İrəli!" əmrinizi gözləyirik.

Sakin: Sumqayıt idmançıları Sizə həmişə dəstək olub və həmişə də dəstək olacaqlar.

Sakin: Bulvarın salınması, bu evlərin tikilməsi üçün böyük minnətdarlığımı bildirirəm. Sizin səyiniz, göstərişləriniz nəticəsində belə gözəl bulvar yaradılıb, evlər tikilib. Çox sağ olun, Allah Sizə ömür versin.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Sizi bir tələbə kimi salamlayıram, bizim Sumqayıtımıza xoş gəlmisiniz. Tələbələrin təqaüdünü artırdığınıza görə Sizə çox təşəkkür edirəm. Tələbələr adından Sizdən bir xahişim də var. Sumqayıt Dövlət Universitetinin, şəhərdəki kollecələrin yataqxanalardakı məcburi köçkünlərin köçürülməsini və bizim tələbələrin orada yerləşdirilməsi üçün göstəriş verməyinizi Sizdən xahiş edirik.

***Ardı Səh. 3***

# Xalq hər zaman öz Prezidentinə dəstəkdir!

## *Prezident İlham Əliyev Sumqayıtın dənizkənarı bulvarında şəhərin sakinləri ilə görüşüb*

Əvvəli Səh. 2

Prezident İlham Əliyev: Biz bu məsələni də həll edəcəyik. Bu il bu məsələ həll olunmalıdır. Bilirsiniz ki, keçən il Sumqayıtdakı köçkünlər üçün 2 mindən çox mənzilin tikintisi təmin edildi və mən o evlərin açılışında olmuşam. Sumqayıtda təqribən 14 min məcburi köçkün ailəsi məskunlaşıb və biz bütün bu ailələri tədricən yeni evlərə köçürəcəyik. Göstəriş verildi ki, bu il əlavə 2 min mənzildən ibarət şəhərciklər salınsın və bu məsələ bir neçə il ərzində həll olunacaq. Həm köçkünlər rahat evlərə köçəcəklər, həm də onların indi qaldıqları yataqxanalar təmir olunacaq və tələbələrə veriləcək.

Bilirsiniz ki, son illər Sumqayıtın inkişafı ilə bağlı çox böyük işlər görülüb. Sumqayıt bu gün müasir sənaye mərkəzinə çevrilib və burada fəaliyyət göstərən müəssisələrdə minlərlə insan işlə təmin edilir. Elə bu gün səhər yeni müasir polietilen zavodunun açılışını etdik. Bu zavod təqribən 500 iş yeri yaradan bir müəssisədir. Burada istehsal olunacaq məhsullar ixracyönümlüdür və ölkə iqtisadiyyatına böyük töhfə verəcək. Biz bu yaxınlarda azot gübrələri zavodunun açılışını da etdik. Orada da 500 nəfər işlə təmin olunub. Eyni zamanda, göstəriş vermişəm ki, ödənişli ictimai işlər də açılsın və 2 min iş artıq açılıbdır. Göstəriş vermişəm ki, əlavə təqribən 2 minə yaxın ictimai iş açılsın ki, hələlik iş tapa bilməyən vətəndaşlar orada işləyə





bilsinlər. Siz xatırlatdınız, mən demişəm ki, Sumqayıt bulvarı da bir möcüzədir.

Mən həmişə demişəm ki, Sumqayıt inkişaf baxımından paytaxt şəhərinə yaxın olmalıdır və bu gün biz bunu görürük. Düzdür, Bakı son illər çox gözəlləşib, abadlaşıb, ancaq Sumqayıt kimi gözəl şəhərdə insanların istirahəti üçün mütləq bulvar olmalı idi və biz bir il, hətta bir ildən tez bir vaxtda 4 kilometr uzunluğunda bulvar yaratdıq. İndi bura Sumqayıtın əsas istirahət zonasıdır, görün, nə qədər gözəlləşib. Siz burada dəfələrlə olmusunuz, mən də dəfələrlə olmuşam. Əvvəlki mənzərə əlbəttə ki, çox acınacaqlı idi. Amma bu gün yeni yollar salınır, yeni binalar tikilir, ictimai yerlər yaradılır. Yəni, Sumqayıtın kompleks inkişafı daim diqqət mərkəzindədir. Bir tərəfdən sənaye müəssisələrinin yaradılması, - Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir, - digər tərəfdən, bu gün Sumqayıtın ekoloji vəziyyəti görün nə qədər yaxşılaşıb. Sumqayıtın havası elə bil ki, kurort havasıdır. Əvvəlki illərdə olan toz-dumana, havanı çirkləndirən bəzi müəssisələrin fəaliyyətinə son qoyuldu. Bütün yeni müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Buna görə indi burada ekoloji durum çox yaxşıdır. Minə yaxın evin dam örtüyü təzələnib və bu iş davam edir. Liftlər, həyətlər, yollar təmir olunub. Bu yaxınlarda 2 saylı xəstəxananın əsaslı təmiri haqqında Sərəncam imzalandı. Bundan əvvəl 1 saylı xəstəxana əsaslı təmir edildi. Baxacaqlar, əgər 2 saylı xəstəxananın təmiri mümkündürsə, təmir olunacaq, mümkün deyilsə, sökülüb yenidən tikiləcək.

Qazlaşdırma - burada qazla problem olmamalıdır, həll edilib. İçməli su, elektrik enerjisi ilə bağlı məsələlər həll olunub. Biz burada böyük bir elektrik stansiyası tikmişik ki, bu, Sumqayıtı tam təmin edir. Əlbəttə ki, iş yerlərinin yaradılması diqqət mərkəzindədir. Baxın, bu tikintilərdə gör nə qədər adam işləyir, yeni müəssisələrdə nə qədər adam işləyəcək. Bütün bu işləri biz ona görə görürük ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. İndi minimum əməkhaqqının, minimum pensiyanın, şəhid ailələrinin müavinətlərinin, təqaüdlərin qaldırılması - bütün bunlar nəyə görə mümkün olub? Ona görə ki, çox ciddi islahatlar aparılıb və bizə əlavə gəlir gəlir. Bu gəliri biz, ilk növbədə, hara yönəltməli idik, məhz sosial məsələlərin həllinə. Ona görə bu siyasət davam etdiriləcək və əməkhaqlarının, pensiyaların qaldırılması bundan sonra da nəzərdə tutulacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, uşaqlar daha da yaxşı böyüsünlər, Vətənimizin layiqli övladları olsunlar, ölkəmiz daim qabağa getsin, inkişaf etsin, güclənsin.

Sakin: Cənab Prezident, əsas Sərəncam Sumqayıt şəhərinin 70 illiyinin keçirilməsi ilə bağlı idi.

Prezident İlham Əliyev: Bəli, onu da bu yaxınlarda imzalamışam.

Sakin: İnşallah, onu Sizin iştirakınızla yüksək səviyyədə keçirərik.

Prezident İlham Əliyev: Əlbəttə, böyük tədbir, böyük bayram olacaq. O Sərəncamın imzalanması da Sumqayıta göstərilən növbəti diqqətin əlamətidir.

Sakin: Siz 23-cü dəfədir ki, Sumqayıta gəlirsiniz.

Prezident İlham Əliyev: İyirmi dəfədən çoxdur.

Sakin: Özü də hər gəlişiniz Sumqayıtın həyatında və sumqayıtlıların qəlbində silinməz iz qoyur, bizi ruhlandırır, sevindirir, bizə qanad verir. Biz ona görə Sizə minnətdarıq ki, Sumqayıt Sizin qayğınız və diqqətiniz nəticəsində belə inkişaf edir, çox sağ olun, var olun. Allah-Təaladan bir arzumuz var ki, yüz yaşayasınız, sağlam olasınız. Sizə ailə səadəti arzulayırıq. Bir də onu demək istəyirəm ki, bu bulvarın tarixçəsi var. Sumqayıtın 25 illik yubileyində Ulu Öndər bizim indiki Dram Teatrında keçirilən təntənəli yığıncaqda gözəl bir çıxış etdi, sumqayıtlılara və Sumqayıta yüksək qiymət verdi. Dedi ki, arzu edirəm, dəniz qırağında, ləpədöyəndə, yəni, sahildə yaxşı bir bulvar salınsın ki, sumqayıtlıların istirahəti üçün yaxşı yerləri olsun. Siz gəldiniz, Ulu Öndərin bu arzularını yerinə yetirdiniz. Sağ olun, var olun, Allah ölkəmizə sabitlik, əmin-amanlıq, bolluq versin. Allah Sizi qorusun!

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Cənab Prezident, biz Sizi həmişə dəstəkləmişik və dəstəkləyəcəyik. Allah Sizə cansağlığı versin, işinizi avand etsin. Hər sübh namazında Sizə dua edirəm. Siz bizə lazımsınız. Allah Sizi Azərbaycan xalqının başı üzərindən əksik etməsin.

Prezident İlham Əliyev: Çox sağ olun.

# “Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir”

*Prezident İlham Əliyev Sumqayıtda “SOCAR Polymer”in yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib*






***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib önünə gül dəstəsi qoyub. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlətimizin başçısına məlumat verib. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və “SOCAR Polymer” MMC-nin baş direktoru Fərid Cəfərov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdilər.

Bildirildi ki, “SOCAR Polymer” layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. “SOCAR Polymer” şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan “SOCAR Polymer” zavodlarının təməli qoyulub. 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə layihə çərçivəsində inşa olunan polipropilen zavodunun açılışı olub. Artıq yüksəksıxlıqlı polietilen zavodu da istismara tam hazırdır. İlkin mərhələdə, “SOCAR Polymer” zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcək.



Prezident İlham Əliyevə məlumat verildi ki, artıq Türkiyə, Rusiya, Belarus və Ukraynadan sifarişlər qəbul edilib. Zavodda “Made in Azerbaijan” brendi ilə istehsal olunan polipropilen qatarla sifariş olunan ölkələrə yola salınıb. Sonra Prezident İlham Əliyev zavodun idarəetmə mərkəzi ilə tanış olub.

Daha sonra Prezident İlham Əliyev yüksəksıxlıqlı polietilen zavodunu işə salıb. Zavodun tərkibində olan polimerizasiya, katalizatorun aktivləşdirilməsi əraziləri, orqanoleptik emal bölməsi, laboratoriya, qablaşdırma bölməsi, anbar və idarəetmə otağının fəaliyyətinə dair qısa film nümayiş olunub. Sonra yüksəksıxlıqlı polietilen zavodunun ilk məhsulu xatirə olaraq Prezident İlham Əliyevə hədiyyə edilib. Dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşüb.

Görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, bu zavodun fəaliyyətə başlaması Sumqayıt şəhərinin ümumi inkişafına böyük töhfədir:

“Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Son illərdə Sumqayıtda bir çox müasir müəssisələr yaradılıb. Bu il Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin açılışı nəzərdə tutulur. Sumqayıtın həm sənaye, həm iqtisadi, sosial inkişafı daim diqqət mərkəzindədir. Sumqayıt bu gün yüksək ekoloji standartlara uyğun şəhərlərdən biridir. Biz bu sahəyə də çox böyük önəm verirdik. Çünki bilirsiniz ki, sovet vaxtında Sumqayıtda ekoloji vəziyyət o qədər də ürəkaçan deyildi. Sovet məkanında Sumqayıt bu baxımdan geridə qalmış şəhərlərdən biri idi. Bu da təbii idi, çünki o vaxt müasir təmizləyici qurğular mövcud deyildi və burada böyük kimya mərkəzi yaradılmışdı. Bu gün isə Sumqayıtın gözəl havası, ictimai yerləri var, istirahət üçün parklar yaradılıb, vaxtilə salınmış parklar abadlaşdırılıb, Sumqayıt bulvarı yaradılıb, özü də qısa müddət ərzində. Bu da çox gözəl hadisədir. Yəni, şəhərin ümumi inkişafı ilə bağlı çox böyük tədbirlər görülür, infrastruktur layihələri icra edilir. Bu yaxınlarda 2 saylı şəhər xəstəxanasının təmiri ilə bağlı müvafiq Sərəncam verilmişdir. Bu xəstəxanada təxminən 200-ə yaxın çarpayı var. Ondan əvvəl biz 1 saylı xəstəxananın təmirini təmin etdik. Qazlaşdırmanın səviyyəsi təxminən 100 faizdir. Yəni, bir sözlə, belə zavodların fəaliyyətə başlaması şəhərin inkişafına da təkan verir.

Bu gün nəinki Sumqayıtın tarixində, ölkəmizin tarixində çox əlamətdar bir gündür. Çünki hər bir ölkə belə gözəl müəssisələrlə fəxr edə bilər. Xüsusilə nəzərə alsaq ki, bu müəssisələrdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Yəni, Azərbaycanın gənc nəsli müasir Azərbaycana xidmət edir. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. “

# Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq əlaqələri inkişaf edir

*Prezident İlham Əliyev Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Böyük Britaniyaya səfərini və Baş nazir xanım Tereza Meylə görüşünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev Baronessa Emma Nikolsonun Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafındakı rolunu və verdiyi töhfələri yüksək qiymətləndirdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmi vurğulandı, Azərbaycan ilə Böyük Britaniya arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı ölkələrimiz arasında səhiyyə, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı. Dövlətimizin başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Sumqayıt şəhərində abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Heydər Əliyev Mərkəzində rus avanqard rəssamlarının nadir əsərlərindən ibarət sərgi açılıb

***Heydər Əliyev Mərkəzində "Zamanında. Rusiya regional muzeylərinin 1900-1930-cu illərə aid rus avanqardı kolleksiyaları. Üçüncü hissə" adlı sərgi açılıb.***

AZƏRTAC xəbər verir ki, ekspozisiyada Rusiyanın 17 şəhərindəki regional muzeylərdən toplanmış nadir avanqard kolleksiya nümayiş olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib.



Mərasimdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək sərgi ilə bağlı fikirlərini bölüşüb. Ölkəmizin mədəni həyatında bir çox tədbirlərin keçirildiyini deyən Anar Ələkbərov bildirib ki, Heydər Əliyev Mərkəzi ənənəvi olaraq bu cür tədbirlərin təşkil edildiyi məkana çevrilib. Burada keçirilən tədbirlər hər zaman yüksək qiymətləndirilir. Bu layihənin üzərində uzun zamandır iş aparıldığını deyən direktor sərginin ərsəyə gəlməsindən məmnunluğunu bildirib. O, sərginin ölkəmizdə ilk dəfə keçirildiyini diqqətə çatdıraraq layihənin reallaşmasında göstərdikləri dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirib.





Sərginin fevralda açılmasının təsadüfi olmadığını vurğulayan Anar Ələkbərov bildirib ki, bu ay tanınmış avanqard klassiki, sərgidə əsərləri nümayiş olunan Kazimir Maleviçin anadan olmasının 140 illik yubileyi qeyd edilir.

Heydər Əliyev Mərkəzinin direktoru layihənin reallaşmasında Rusiya Yəhudi İcmaları Federasiyasının prezidenti, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzinin baş direktoru Aleksandr Borodanın və sərginin kuratoru, incəsənət tarixçisi Andrey Sarabyanovun da xidmətlərini xüsusi vurğulayıb.

Rusiya Yəhudi İcmaları Federasiyasının prezidenti, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzinin baş direktoru Aleksandr Boroda deyib ki, Rusiyanın regional muzeylərindən toplanan bu əsərlərin nümayişi Heydər Əliyev Mərkəzi, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzi, Moskva Müasir İncəsənət Muzeyinin birgə səyləri nəticəsində mümkün olub. Aleksandr Boroda rəhbərlik etdiyi mərkəzin uzun illərdir Heydər Əliyev Mərkəzi ilə səmərəli əməkdaşlıq qurduğunu diqqətə çatdıraraq deyib: "Biz Heydər Əliyev Fondunun rəhbərliyinin qarşılıqlı hörmət və tolerantlıq prinsiplərini tam dəstəkləyirik. Azərbaycan Prezidentinin həyata keçirdiyi tolerantlıq siyasətinə hər zaman böyük hörmətlə yanaşılır. Bu cür layihələrin gələcəkdə də reallaşacağına əminik".

"Çox sevinirəm ki, bu gün rus avanqardı Bakıya gəlib", - deyən sərginin kuratoru, incəsənət tarixçisi Andrey Sarabyanov vurğulayıb ki, sərginin Bakıda keçirilməsi təsadüfi deyil. Bu sərginin özünəməxsusluğu ondadır ki, burada az tanınan rəssamların da əsərləri nümayiş olunur. O, sərginin təşkilatçılarına minnətdarlığını bildirib.



Çıxışlardan sonra qonaqlar sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Ekspozisiyada avanqard incəsənət tarixinə mühüm töhfələr vermiş klassiklərin - Kazimir Maleviç, Vasili Kandinski, Aleksandr Rodçenko, Vladimir Tatlin, Aleksandr Ekster, Mark Şaqal ilə yanaşı, Viktor Bart, Aleksey Qrişenko, Aleksey Morqunov, Sergey Romanoviç, Pavel Mansurov və digərlərinin yaradıcılığından nümunələr təqdim olunub. Ümumilikdə 60 əsərin yer aldığı ekspozisiya özündə 2016-cı və 2017-ci illərdə Moskvada nümayiş olunan "Zamanında. Birinci hissə" və "Zamanında. İkinci hissə" sərgilərinin eksponatlarını birləşdirir və rus avanqardının 1900-cü illərin ortalarında formalaşmasından başlayaraq 1930-cu illərin əvvəllərindəki tənəzzülünə qədər olan dövrü əhatə edir. Layihənin əsas ideyası məşhur, az tanınmış və ümumiyyətlə tanınmamış avanqard rəssamların Rusiya regional muzeylərinin kolleksiyalarında qorunan əsərlərini təqdim etmək, XX əsrin ilk 30 ilində rus incəsənətindəki əsas üslubları sərgiləməkdir.

Ekspozisiya Heydər Əliyev Mərkəzində mayın 5-dək açıq olacaq.

## "Azərbaycan əleyhinə təbliğat aparan şəxslərə hakimiyyətin tövbə qapısı açıqdır"



"Cənab prezident bağışlayan və günahlardan keçəndir". SİA-nın verdiyi məlumata görə, bunu kinodramaturq, Kinematoqrafçılar İttifaqının sədri Rüstəm İbrahimbəyovun Azərbaycana gəlməsi ilə bağlı Yeni Azərbaycan Partiyası icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov mətbuata açıqlamasında bildirib.

S.Novruzov bildirib ki, bu gün ölkədə çox böyük işlər gedir və islahatlar aparılır: "Bütün bunlarla bağlı müvafiq addımlar atılır. Bütün sahələrdə inkişaf olduğu kimi, bu inkişafın həyata keçirilməsi üçün müvafiq Dövlət Proqramları var. Hamısı həm struktur islahatlarda, həm iqtisadiyyatda, həmçinin kənd təsərrüfatında, sosial təminata yeni baxış, minimum əmək haqlarının artırılması, pensiyaların artırılması məsələləri dövlətin ən prioritet istiqamətlərindəndir. Bütün sahələrə nəzər salsaq dünyada baş verən hadisələrin çərçivəsində Azərbaycan uğurla inkişaf edir və bu gün də davam olunur. Hazırda Azərbaycanda çox ciddi ictimai-siyasi sabitlik var. Xalq-iqtidar birliyi hökum sürür. Son seçkilərdə dediklərimin bir daha bariz nümunəsidir. Azərbaycan xalqı bir daha göstərdi ki, öz prezidentinin yanındadır. Prezidentin hərtərəfli siyasətində bütün sahələrdə: istər ictimai siyasi, istər hüquqi, istər mənəvi, tolerantlıq, idman, sisyasi sistemin formalaşması, mətbuatın azadlığı, internet azadlığı və digər başqa-başqa sahələr ölkə başçısının diqqətindədir. Bəzən bu sahələrdə sui-istifadə halları da olur. O cümlədən humanizim Heydər Əliyevin siyasətinin əsas aparıcı xətlərindən biri olub. O, əfv sərəncamları, amnisiya aktları imzalayıb. Bu uğurlu siyasət hazırda Heydər Əliyevin davamçısı İlham Əliyev tərəfindən davam etdirilir. Bu günə qədər 70 qədər əfv sərəncamı imzalanıb. Həmçinin indiyədək Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə böyük amnistiya aktı imzalanıb. Kim isə səhvini başa düşür, elədiyi əməldən peşmançılıq çəkir, vaxti ilə bu məsələləri görməyib, indi görmə imkanları bərpa olunubsa, həmin insanlar həmişə humanizim aktının obyektinə çevrilə bilirlər. Hər zaman bağışlamaq hüququ böyük Allaha məxsusdur, Konstitusiyada isə cənab prezidentə məxsusdur. Cənab prezident bağışlayandı və günahlardan keçəndir".

Yeni Azərbaycan Partiyası icra katibinin müavini xaricdəki azərbaycanlılara da səslənib: "Xaricdə Azərbaycan əlehinə təbliğat aparan şəxslərə hakimiyyətin tövbə qapısı açıqdır. Ölkə prezidenti İlham Əliyev səhv edən siyasətçiləri və vətəndaşları bağışlayıb".

S.Novruzov mətbuat vasitəsilə xaricdəki azərbaycanlılara səslənib: "Xaricdə ölkəmiz və hakimiyyətimiz əleyhinə təbliğat aparmayın. Ölkəmizə qayıdın. Xarici lobbilərin pullarına aldanmayın. Ölkəmizi sevin və gəlin dövlətimizin inkişafı naminə cənab prezidentə dəstək verək. Cənab prezident İlham Əliyev və ölkənin birinci vitse-prezidenti Mehriban Əliyeva daim səhv edən şəxsləri əfv edib. Hər bir azərbaycanlı bu cür xoş addımları dəyərləndirməyi bacarmalıdır".

## "Azərbaycanlılarla çeçenləri özündə birləşdirən daha bir amil ümumi Qafqaz evidir"



Azərbaycan xalqı ilə çeçen xalqı arasında daim mütəşəkkil və kifayət qədər möhkəm qardaşlıq əlaqələri mövcuddur, bu reallıq isə, uzun illərə söykənir". Sözügedən fikirləri "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev son günlər azərbaycanlılarla çeçenlər arasında təxribata hesablanmış cəhdlərlə münasibətini bildirərkən deyib.

Onun sözlərinə görə, Çeçenistan daim Qarabağ münaqişəsində Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyib, eləcə də, birinci Qarabağ müharibəsində bütün mənalarda öz dəstəyini əsirgəməyib: "Bu gün, bu qardaşlıq münasibətlərinə kölgə salmağa çalışan mənfi qüvvələr üzə çıxıblar və onların həmin cəhdləri boşa gedib. Çünki Azərbaycan və çeçen xalqları tarixlər boyu bir-birinin yanında olaraq, ən çətin anlarında yanbayan olublar. Rusiyada baş verənlər isə, söz yox ki, düşmən əməlidir və artıq bu məsələnin çözülməsi istiqamətində müvafiq addımlar atılıb. Çeçen və azərbaycanlı diaspora nümayəndələri görüşərək, sözügedən cəhdlərin təxribat olduğunu vurğulayıblar. Düşünürəm ki, tarixi kökləri və bağlılıqları olan xalqlarımız heç vaxt belə təxribatlara getməyib, bundan sonra da getməyəcək".

Siyasi ekspert daha bir xatırlatmanı da edərək bildirib ki, Çeçenistanın ən ağır günlərində Azərbaycan xalqı öz qapılarını qardaş xalqın üzünə açıb: "Əlbəttə ki, çeçen qardaş və bacılarımız da bu doğmalığı heç vaxt unutmayıblar, bundan sonra da unutmayacaqlar. Bizi birləşdirən daha bir amil ümumi Qafqaz evidir. Eləcə də, azərbaycanlılarla çeçenləri birləşdirən məqam da bu reallığa söykənir. Bu ev, həm də bütün xoşməramlı, sülhsevər Qafqaz xalqlarını özündə birləşdirən sülh carçısıdır. Hesab edirəm ki, artıq təxribat cəhdi puç olub və belə cəhdlərin qarşısını alan yeganə faktor müdriklikdir - Azərbaycan və çeçen xalqlarının müdrikliyi".

*Rövşən NURƏDDİNOĞLU*

## "Fitch Ratings" Azərbaycanın reytinqini təsdiqləyib




"Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın xarici valyutada uzunmüddətli emitent defoltu reytinqini (EDR) təsdiqləyib. AZƏRTAC "Fitch"ə istinadla xəbər verir ki, agentlik Azərbaycanın xarici valyutada uzunmüddətli emitent defoltu reytinqini "sabit" proqnozla "VV+" səviyyəsində təsdiq edib.

## "İşğalçı ölkə Azərbaycanın verdiyi dərsi unuda bilmir"



"İşğalçı Ermənistan çalışır ki, danışıqları mümkün qədər uzatmaqla status-kvonu saxlasın ancaq bu mümkün deyil. Buna diplomatiyada status-kvonun legitimləşdirilməsi də deyirlər. Məsələnin daha bir pis cəhəti də var. Bu da ondan ibarətdir ki, hazırda dünya siyasətini müəyyənləşdirən güc mərkəzləri bu vaxta qədər beynəlxalq münasibətlərdə və konfliktlərin həllində imperativ olan paradiqmanı son illərdə dəyişdiklərini bəyan ediblər". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, əgər əvvəlki paradiqma ədalət sonra sülh prinsipinə əsaslanırdısa yeni paradiqma sülh sonra ədalət prinsipinə əsaslanır: "Adi məntiq isə bunu diqtə edir ki, ədalət olmadan sülh mükün deyil. Deməli qlobal imperialist mərkəzlər öz siyasi coğrafiyalarından kənarda sülh istəmirlər tam əksinə lokal müharibə ocaqları yaratmaqla öz istismarçı siyasi strategiyalarını həyata keçirirlər. Buna bəzən idarə olunan xaos siyasəti də deyirlər. İstər Müsəlman Şərqində istərsə də Ukrayna və postsovet məkanında konfliktlərin bu qədər ardıcıl və uzunmüddətli olmasını həm də bu prizmadan qiymətləndirmək mümkündür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli də bu kontekstə nəzərdən keçirilə bilən problemlərdən hesab edilə bilər. İşğalçı Ermənistan da beynəlxalq münasibətlər sistemində nəyin necə və hansı istiqamətdə inkişaf etdiyini izləyir və bunu bizə qarşı istifadə etməyə çalışırlar. Ancaq şübhəsiz ki, Ermənistanda elə ciddi beyin mərkəzləri yoxdur ki, bütün bunları təhlil edib düzgün nəticə çıxara bilsinlər. Düşmən ölkəyə belə məsələlərdə mövqelərini dəqiqləşdirməkdən ötürü həm şimal, həm də qərb mərkəzli güclərdən hazır diplomatik reseptlər verilir və onlar da buna uyğun hərəkət edirlər. Yəni dolayısı ilə problemi həll etmək üçün BMT Təhlükəsizlik Şurasından xüsusi mandat almış qrum problem həll etmək deyil, əslində onun həllinin mümkün qədər uzadılması ilə məşğul olur. Azərbaycanın qətiyyətli və tələbkar mövqeyindən sonra müəyyən ümidlər yarananda bir qədər yumşaq və problemin həlli yolu istiqamətində çox xəsisliklə də olsa verilən pozitiv bəyanatların şahidi oluruq.

Bir qədər sonra isə tutaq ki, Şimaldan belə bir rəsmi bəyanat verilir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabğ probleminin həllində bizim mövqeyimiz dəyişməyib, əvvəlki kimi problemin sülh yolu ilə həlledilməsini arzulayırıq. Bu diplomatik bəyanatın daxili məzmunu odur ki, biz mövqeyimizi dəyişməmişik və problemin həll edilməsinə icazə verə bilmərik. Çünki bu problem əslində bizim üçün həm Ermənistanı, həm də Azərbaycanı nəzarətdə saxlamaq üçün elə bir universal hərbi-siyasi alətdir ki, ondan əsla vaz keçə bilmərik. Bu isə işğalçı ölkənin maraqlarına cavab verir və işğal etdiyi Azərbaycan torpaqlarını bu günə qədər nəzarətdə saxlamasına imkan yaradır. Ancaq son bir ilə yaxın bir müddətdə vəziyyət bir qədər dəyişib. İşğalçı ölkə bu yolla yaşamağın uzunmüddətli perspektivdə mümkün olmadığını başa düşür və üstəlik Azərbaycanın Aprel və Naxçıvan döyüşləri vasitəsilə verdiyi dərsi unuda bilmir. Ona görə də hazırda müxtəlif ziddiyyətli bəyanatlar verməklə ənənəvi Şimal və yeni Qərb təzyiqlərinin arasında bir tarazlıq tapmağa çalışır və açığı əslində bu o qədər də çətin deyil. Çünki iki mərkəzi heç biri əslində problemi həll etmək üçün Ermənistana heç bir təzyiq etmir. Ermənistana təzyiqlər sadəcə onun hansı mərkəzin nüfuz dairəsinə keçməsi məsələsindədir. Ona görə də işğalçı ölkə xristian təəssübkeşliyinə də arxalanaraq belə sərbəst davranır. Ancaq əlbətdə Azərbaycan bütün bunları görür və buna qarşı strateji diplomatiya və hərbi-siyasi hüc müəyyənləşdirir.

Prezident İlham Əliyev milli mətbuatımıza müsahibəsində bir daha vurğuladı ki, biz iqtisadi və hərbi-siyasi gücümüzü artırmağa müasir, inkişaf etmiş və gələcəkdə də inkişaf etmiş olan Azərbaycan qururuq. Düşünürəm ki, bu strateji fikirin əsas məntiqindən biri də elə problemin həlli edilməsi ilə bağlıdır. Təsadüfi deyil ki, cənab Prezident son müsahibəsində bir daha Aprel və Naxçıvan döyüşlərini xatırlatdı. Bu əslində həm də Ermənistana bir xəbərdarlıq kimi başa düşülə bilər.

*Ceyhun Rasimoğlu*

## "Ölkədəki əlverişli mühit sahibkarlara biznesin istənilən sahəsi ilə məşğul olmağa imkan verir"

Azərbaycandakı əlverişli mühit sahibkarlara biznesin istənilən sahəsi ilə məşğul olmağa imkan verir. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

"Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti imkan verir ki, sahibkarlar biznesin istənilən sahəsi və növü ilə məşğul olsunlar. Bunun üçün ölkəmizdə hər cür şərait var", - deyə nazir qeyd edib.

## "233 min insanın pensiyasında artım olacaq"



Ölkədə əmək pensiyaları 160 manatdan aşağı pensiya alan bütün təqaüdçülərə şamil edilir. Nəticədə 233 min insanın pensiyasında artım olacaq. Bunun 140 mini məhz əlilliyi olan şəxslərdir. Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev jurnalistlərə açıqlamasında bildirib. Müavinətlərlə bağlı konseptual iş aparıldığını deyən nazir respublika üzrə ümumi müavinətlərin və təqaüdlərin siyahısının 80-ə çatdığını söyləyib. Onların optimallaşdırılması və təkmilləşdirilməsi ilə bağlı ciddi iş aparılır.

Özəl pensiya sisteminin yaradılması məsələsinə toxunan S.Babayev bu gün qanunvericilikdə bununla bağlı hər hansı məhdudiyyətin olmadığını qeyd edib: "Özəl pensiya sistemi ilə əlaqədar istənilən şəxs müraciət edə bilər. Lakin özəl pensiya sisteminin yaradılması üçün onun kommersiya və mənfəətlilik tərəfi olmalıdır. O, birbaşa məşğulluq bazarı, əhalinin gəlirləri ilə bağlıdır".

# Sumqayıtın mənzərəsi Azərbaycanın müasir nailiyyətlərini özündə təcəssüm etdirir



*Dövlət başçısının Sərəncamı ilə Sumqayıtın 70 illik yubileyi qeyd olunacaq*

***Azərbaycanın müasir sənaye mərkəzlərindən olan Sumqayıt bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Əhalisinin sayına görə və sahəsinə görə Bakıdan və Gəncədən sonra üçüncü böyük şəhər olan Sumqayıt yarandığı dövrdən etibarən müasir sənaye şəhərinə çevrilmək istiqamətində qazandığı uğurların miqyasını ildən-ilə genişləndirərək, parlaq inkişaf yolu keçib.***

Özünün iri müəssisələr şəbəkəsi və müvafiq infrastrukturunu formalaşdıran şəhər, qısa müddət ərzində, ölkənin aparıcı sənaye mərkəzlərindən biri kimi tanınmış, eyni zamanda, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə böyük müvəffəqiyyətlər əldə etmişdir. Özünəməxsus inkişaf yolu keçən Sumqayıtın şəhər statusu almasının 70 illiyi münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Belə ki, 2019-cu ilin noyabr ayında Sumqayıtın şəhər statusu almasının 70 illiyi tamam olur. Sərəncama əsasən, ölkəmizin dinamik sosial-iqtisadi yüksəlişinin təmin olunmasında şəhərin fəal iştirakı nəzərə alaraq, 70 illik yubileyi ölkədə geniş qeyd ediləcək. Sumqayıt şəhər icra hakimiyyəti 70 illik yubileylə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.

Sumqayıt şəhəri yarandığı gündən inkişaf mərhələləri keçmişdir. 1949-cu il - Azərbaycan Ali Soveti Prezidiumunun qərarı ilə Sumqayıta şəhər statusu verilib. Tez bir zamanda Sumqayıt Alüminyum zavodu, elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir. Burada Avropanın ən böyük neft-kimya kombinatının tikintisinə başlanılıb. Bir-birinin ardınca yeni müəssisələr - kərpic zavodu, polimer tikinti materialları kombinatı, superfosfat zavodu tikilərək istehsala başlayır.

## SUMQAYITIN TARİXİNİN ƏN ƏLAMƏTDAR SƏHİFƏLƏRİ XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

Sərəncamda qeyd olunduğu kimi, Sumqayıtın tarixinin ən əlamətdar səhifələri xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin diqqət və qayğısı sayəsində hələ ötən əsrin 70-80-ci illərində Sumqayıtda, xüsusən, neft və kimya sənayesinin sürətli inkişafı üçün geniş imkanlar açılmış, zamanın tələblərinə uyğun texnologiyalar əsasında yeni-yeni istehsal sahələri istismara verilmişdir.

Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra Sumqayıt şəhəri özünün sosial-iqtisadi yüksəliş salnaməsini zənginləşdirməkdə davam etmişdir. Bu gün Sumqayıtın sosial-mədəni həyatında mühüm irəliləyiş və dəyişikliklər baş verir, şəhər yeni bir inkişaf mərhələsini yaşayır. Ulu Öndər Heydər Əliyev dəfələrlə Sumqayıtda olmuş, bu şəhərin iqtisadi və mədəni inkişafına, elm və mədəniyyətinin tərəqqisinə daim yüksək qayğı və diqqət göstərmişdir. Ümummilli Liderin Sumqayıtın inkişafı ilə bağlı həyata keçirdiyi bütün tədbirlər sumqayıtlıların yaddaşına əbədi həkk olunmuşdur. Xalqımız milli müstəqilliyə nail olduqdan sonra Ulu Öndərin Sumqayıta diqqət və qayğısı daha da artmışdır. Ulu Öndərin layiqli davamçısı Cənab İlham Əliyevin Sumqayıt şəhərinə olan diqqət və qayğısı da davamlıdır. Son bir neçə ildə inşa edilən müxtəlif idman kompleksləri, sənaye obyektləri, təhsil və tibb ocaqları, mədəni mərkəzlər bu qayğının parlaq təzahürüdür.

## ELMİN, TƏHSİLİN VƏ MƏDƏNİYYƏTİN ÜMUMİ TƏRƏQQİSİ İŞİNƏ LAYİQLİ TÖHFƏLƏR BƏXŞ EDİR

Müvəffəqiyyətlə gerçəkləşdirilən dövlət proqramları və infrastruktur layihələr çərçivəsində "Sumqayıt Texnologiyalar Parkı" və "Sumqayıt Kimya Sənaye Parkı", həmçinin, digər mühüm obyektlər qurulmuşdur. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə mövcud olan ağır sənaye müəssisələrinin əksəriyyəti müasir texnologiyaya əsasında yenidən qurulmuşdur.

Sumqayıt şəhəri elmin, təhsilin və mədəniyyətin ümumi tərəqqisi işinə bu gün də layiqli töhfələr bəxş edir. Sumqayıt Dövlət Universiteti artıq respublikanın nüfuzlu ali təhsil ocaqlarındandır. Sumqayıt Dövlət Dram Teatrının ölkədə teatr sənətinin inkişafında özünəməxsus xidmətləri vardır. Sumqayıtda Azərbaycan Milli Elmlər Akademiyasının Polimer Materialları İnstitutu, "Azərikimya" İstehsalat Birliyinin Dövlət Layihə İnstitutu və Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin "Neftqazavtomat" Elm-İstehsalat Müəssisəsi fəaliyyət göstərir. Sumqayıt şəhərinin gerbi də onu simvolizə edir. Belə ki, fürüzə rəngi Sumqayıt şəhərinin dəniz sahili sularının rəngini, göy rəng səmanı, şəhərin simvollarından sayılan "Göyərçin" abidəsi isə Sumqayıt şəhərinin sülh və əmin-amanlıq şəhəri olmasını göstərir.

Sumqayıtın qədim tarixi olmasa da, onun qəsəbələrinin ərazisində turistlərin diqqətini cəlb edə biləcək bir neçə tarixi abidələr var, Corat qəsəbəsində 2 hamam (XVI-XVII əsrlər), məscid (XVII əsr), H.Z.Tağıyev qəsəbəsində Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi su-nasos qurğuları yerləşən bina (1916-cı il).

Turistlərin marağına səbəb ola biləcək mədəniyyət obyektləri də mövcuddur. Sumqayıtın tarixi muzeyinin fondunda bir çox maraqlı eksponatlar saxlanılır. Şəhərin rəsm qalereyasında istedadlı rəssamların rəsmləri və heykəltəraşlıq nümunələri nümayiş olunur.

## SUMQAYIT ŞƏHƏRİNDƏ ABADLIQ-QURUCULUQ VƏ AVTOMOBİL YOLLARININ ƏSASLI TƏMİRİ İŞLƏRİNİN DAVAM ETDİRİLMƏSİ ÜÇÜN DÖVLƏT BÜDCƏSİNDƏN 3,0 (ÜÇ) MİLYON MANAT AYRILIB

Azərbaycan Respublikası Prezidentinin "Sumqayıt şəhərində abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 18 fevral tarixli Sərəncamı da, elə bu şəhərə olan diqqətin daha bir təzahürüdür. Sərəncama əsasən, Sumqayıt şəhərində abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt şəhər icra hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində, Sumqayıt şəhərində sosialyönümlü bir sıra infrastruktur layihələr həyata keçirilib. Olimpiya və Paralimpiya İdman Kompleksləri, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, əlil və şəhid ailələri üçün, ümumilikdə, 240 mənzilli 5 yaşayış binası inşa edilmişdir. Bütün bunlarla yanaşı, 1 saylı Şəhər Mərkəzi Xəstəxanasının, "Kimyaçılar" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin binaları əsaslı təmir olunmuşdur. Bu gün ölkəmizin bir çox yerlərində olduğu kimi, "ASAN xidmət" Mərkəzi fəaliyyətə başlamış, 22 ümumtəhsil müəssisəsi istifadəyə verilmişdir. İri sənaye müəssisələri yaradılmış, 67 min yeni iş yeri açılmışdır. Bundan başqa, şəhər ərazisində geniş abadlıq-quruculuq işləri aparılmış, o cümlədən, şəhər avtomobil yolları yenidən qurulmuş, çoxmənzilli binaların dam örtüyünün dəyişdirilməsi, lift təsərrüfatının yenidən qurulması sahəsində əsaslı işlər görülmüşdür. 106 hektar ərazidə dənizkənarı bulvar kompleksi salınmışdır.

Bu gün özünün yeni inkişaf dövrünü yaşayan Sumqayıtın sosial-iqtisadi mənzərəsi və elmi-mədəni həyatı Azərbaycanın müasir nailiyyətlərini özündə doğun təcəssüm etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Nizami rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib

Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Dünən Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva konfransın gündəliyi haqqında məlumat verib.



S.Vəliyeva bildirib ki, hazırda YAP Nizami rayon təşkilatının 13667 nəfər üzvü var, onlardan 6576 nəfərini gənclər, 6097 nəfərini isə qadınlar təşkil edir, rayon təşkilatının 141 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir: "1993-cü ildə yaradılmış Nizami rayon təşkilatı mühüm inkişaf yolu keçib, üzvlərinin və ərazi təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artıb. Nizami rayonunda əhalinin YAP-a axını, ilk ərazi partiya təşkilatlarının yaradılması Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursa və Onun layiqli davamçısı, Prezident İlham Əliyevə inamdan irəli gəlir".

YAP Nizami rayon təşkilatı gənclər birliyinin IV konfransdan ötən müddət ərzində, görülmüş işlərə dair hesabatı təqdim edən rayon təşkilatı GB-nin sədri Sevinc Abdullayeva qeyd edib ki, GB-nin IV konfransında üzvlərinin sayı 5511 nəfər idisə, bu gün bu rəqəm 6576-dır. Bu müddət ərzində, YAP Nizami rayon GB bir çox işlər görüb, öz sıralarını daha da genişləndirib. Hesabat ətrafında çıxış edən YAP Gənclər Birliyinin sədr müavini, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşı Əli Pənahov, YAP Nizami rayon təşkilatı Heydər Əliyev adına NEZ ərazi ilk partiya təşkilatının sədri Samir Əhmədov, Azərbaycan Rus İcmasının Nizami rayon şöbəsinin Gənclər Qolunun sədri Regina Kovalyova, IV konfransdan ötən müddət ərzində, görülmüş işlərə dair hesabatı qənaətbəxş hesab etdiklərini bildirib və gənclərin fəaliyyətini yüksək qiymətləndiriblər.

Sonra təşkilati işlərə baxılıb, YAP Nizami rayon təşkilatı gənclər birliyinin şura üzvləri, idarə heyəti və YAP GB-nin növbəti konfransına nümayəndələri seçilib.

Konfrans iştirakçılarının yekdil səsverməsinə əsasən Sevinc Abdullayeva YAP Nizami rayon təşkilatı gənclər birliyinin sədri, Ramil Vəlibəyov sədrin I müavini, Ramil Rüstəmov və Regina Kovalyova isə müavinləri seçiliblər.

Tədbirdə çıxış edən Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib ki, gənclərimiz ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edir, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirir: "Bütün bunlar gəncliyimiz üçün dövlət tərəfindən yaradılmış əlverişli imkanlar, verilmiş mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncləri unutmurlar ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kurs nəticəsində nail olublar". YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov bildirib ki, bu gün partiyanın sıralarında 730 minə yaxın üzvün olduğunu bildirib və qeyd edib ki, onların arasında gənclər, xüsusilə, fərqlənirlər.

E.İbrahimov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvədir və partiyanın fəaliyyəti xalqımızın ali mənafeyinin ifadəsi kimi çıxış edir: "Bu gün Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu getdikcə artmaqdadır. Partiyanın cəmiyyətin inkişafına yönəlmiş çoxsaylı sosial layihələr reallaşdırması, gəncləri dövlətçilik və milli maraqlar ətrafında sıx birləşdirməsi onun tərəfdarlarının sayının artmasına səbəb olub. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib".

Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov çıxışında bildirib ki, Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrində aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: "Azərbaycan dövləti siyasətində gənclərə üstünlük verməklə bərabər, bu istiqamətdə siyasəti gənclərin, bilavasitə iştirakı ilə formalaşdırıb həyata keçirir. Bu, onu göstərir ki, Azərbaycan dövləti gənc nəslə həm etibar edir, onun qayğıları ilə məşğul olur, həm də gənclərin ideyalarını, təkliflərini, bilavasitə özlərindən alaraq həyata keçirir". Çıxışlardan sonra partiyaya yeni qəbul edilmiş gənclərə vəsiqələr, rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxsə fəxri fərmanlar təqdim edilib.

***R.KAMALQIZI***

# Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları

## *Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır*



***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov "Facebook" səhifəsində "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsini yerləşdirib. AZƏRTAC mövzuya ictimai marağı nəzərə alaraq məqaləni təqdim edir.***

1988-ci ildən bəri Azərbaycanın aktiv siyasi həyatındayam. 1993-cü ildən isə Prezident komandasında vətəndaş cəmiyyəti təsisatları - QHT-lər, KİV-lər və siyasi partiyalarla əlaqələrlə birbaşa məşğul oluram. Məsuliyyətlə söyləyə bilərəm ki, bütün fəaliyyətim dövründə həm dövlətimizin qurucusu ümummilli lider Heydər Əliyev, həm də onun siyasi varisi Prezident İlham Əliyev siyasi plüralizmi və çoxpartiyalı sistemi Azərbaycanın demokratik inkişafının təməl prinsipi kimi görüblər, ölkədə vətəndaş cəmiyyətinin mühüm seqmenti olaraq həm ictimai, həm də siyasi opponentlik mexanizmlərinin işlək və çevik olmasına çalışıblar, çoxrəngli ideoloji-siyasi palitranın mövcudluğunu arzu ediblər. Çünki cəmiyyətdəki fərqli kəsimlərin, o cümlədən müxalifətin də cari proseslərə, gələcəyə hesablanmış konsepsiyalara baxış və rəylərini bilmək, alternativ ideyaları dəyərləndirmək və yeri gələndə, ən azı ehtiyat variant olaraq nəzərdə saxlamaq təkcə rasional idarəçilik baxımından deyil, həmçinin hakimiyyətdə olan komandanın istənilən siyasi rəqabətə daim hazırlıq formasında qalması üçün vacib şərtdir.

Hakim komandanın məsul üzvlərindən biri olaraq məhz bu yanaşmanı əsas götürməklə ötən illər ərzində ölkənin siyasi səhnəsində yer alan, yer almaq istəyən, siyasi proseslərə istər açıq, istərsə də dolayı şəkildə təsir göstərməyə cəhd edən çeşidli qrupların, ayrı-ayrı şəxslərin fəaliyyətini müşahidə və təhlil etmək imkanım olub. Qənaətlərimi qısa və ən ümumi şəkildə belə ifadə edə bilərəm: əks düşərgənin ümumi tablosunda konstruktiv qüvvələr də yer alıb, destruktiv qüvvələr də; bir zamanlar özlərini "milli demokrat" adlandıran, amma sonradan Avropa Liberal Demokrat İttifaqına qatılmaq naminə dəyərlərini dəyişən sağçılar da var, özlərinə gah solçu, gah da cənubda himayədar axtaran solçular da; dünyəvi konstitusion quruluşu əsl dövlətçilik istehkamı olaraq qorumağa hazır olan sekulyarlar da məlumdur, bu quruluşu istiqlalımız qarşısı öpdükləri əlin fitvasına təslim etməyə hazır olan klerikallar da. Sosial bazasını, ictimai dəstəyini Azərbaycan xalqı arasında axtaran və siyasi perspektivini milli iradəyə bağlayan qüvvələrin də şahidi olmuşuq, bütün iddialarını xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxanları da. Lakin Azərbaycanın müstəqil bir dövlət kimi öz əzələlərini möhkəmləndirməsi, ehtiyac yarananda, müstəqilliyimizi istəməyən qüvvələrə nümayiş etdirməsi, regional gücə, beynəlxalq arenada söz sahibinə çevrilməsi baxımından yetərincə təlatümlü keçən ötən illərdən hasil etdiyim bir qənaət də budur ki, milli mənafelərə, ümumi və strateji maraqlara çox asanlıqla arxa çevirərək dövlətə və dövlətçiliyə qarşı opponentlik edən əsas siyasi qruplardan biri Əli Kərimli və onun çevrəsindəki şəxslərdir.

Bu maddi maraq qrupu ta komsomolçu keçmişlərindən üzü bəri daim "maliyyəni verən musiqini də sifariş edər" devizi ilə hərəkət edərək, əvvəlcə mənsub olduqları siyasi partiyanın param-parça vəziyyətə düşməsi üçün heç nədən, hətta liderlərinə xəyanət etməkdən də çəkinməyiblər, sonra isə qazandıqları "təcrübəni" Azərbaycan dövlətinə, xalqına, milli maraqlarımıza qarşı istifadə etməyə başlayıblar. Hazırda bu qrup milli dəyər, məfkurə və müqəddəratımıza zidd olan ritorikaları ilə Azərbaycanda böyük vüsətlə gerçəkləşən və son zamanlar daha da intensivləşən islahatlara hər addımbaşı kölgə salmaq yolunu tutublar.

Sirr deyil ki, Prezident İlham Əliyev həyata keçirdiyi bir çox islahatların nəticəsi kimi son aylarda büdcəmizin artan imkanlarını sosial problemlərin həllinə yönəltdikdən, iqtisadi liberallaşmanı sürətləndirdikdən, siyasi plüralizmin genişlənməsi və bütövlükdə ölkəmizdə insan kapitalının sürətli inkişafına xidmət edən çoxsaylı qərarlar qəbul etdikdən sonra məlum xarici anti-Azərbaycan qüvvələr daha da fəallaşıblar. Bu qüvvələr xaricdəki anti-Azərbaycan şəbəkəsi və ölkəmizin daxilindəki "beşinci kolonu", bir çox digər uzantılarını, o cümlədən Əli Kərimlini və onun qrupunu fəallaşdıraraq işə qoşublar.

Əli Kərimlinin xaricdə mənzil tapan internet resurslarından birinə müsahibə verərkən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi effektli siyasəti öz merkantil maraqları çərçivəsində şərh etməyə çalışması da həmin şəbəkənin fəaliyyətinin bir təzahürüdür. Bəri başdan qeyd edim ki, Əli Kərimlinin müsahibədə səsləndirdiyi fikirlərin hamısı əsassız, reallıqdan uzaq, onun daxili aləminin inikası olmaqla, dövlətə və xalqa son dərəcə yad münasibətinin, ikrahla yanaşmasının ifadəsidir. İrəli sürdüyü və heç bir arqumentə tab gətirməyəcək iddialarının əsasında dayanan motiv də aydındır. O, hər vəchlə hakimiyyət və onun həyata keçirdiyi siyasət barədə cəmiyyətdə formalaşmış müsbət rəyi qaralamağa çalışır.

Görünən reallıq odur ki, istər daxili siyasətdə, istərsə də diplomatik müstəvidə İlham Əliyev hakimiyyətinin qazandığı hər bir uğur Əli Kərimli və bu tipli insanların siyasi iflasını dərinləşdirir, onları cəmiyyətin dinamikasından geridə qoyur, ictimaiyyətin diqqət mərkəzindən uzaqlaşdırır. Belə olan halda isə, onlar özlərini nəinki hakimiyyət uğrunda mübarizənin real subyekti kimi təqdim edə bilmirlər, hətta əbədi müxalifət titulunu da itirmək təhlükəsi ilə üzləşərək xaricdən ötürülən maliyyələrdən məhrum olacaqlarını real təhlükə kimi gözlərinin qarşısına alırlar. Odur ki, sağlam müxalifətçilik zehniyyəti ilə yürüdülən siyasəti təhlil etmək, əgər varsa, onun nöqsanlarını göstərmək, mümkün çətinliklərə diqqət çəkmək, bu yolla müəyyən düzəlişlərə nail olmaq deyil, həmin siyasətin gerçəkləşməsi üçün zəruri olan resurs və alətləri sıradan çıxarmağa, müsbət indikatorları zərbə altına salmağa çalışırlar. Qara niyyətlərinə ağ yalanlarla heç cür bəraət qazandıra bilmədikləri hallarda isə, iddia etməyə başlayırlar ki, guya, Azərbaycan hakimiyyətinin son qərarları və addımları yanvarın 19-da müxalifətin keçirdiyi etiraz aksiyasının nəticəsidir. Axı, ölçüsü, tutumu hər kəsə bəlli olan bir meydanda üç-beş min adamın iştirak etdiyi mitinq tribunasından hansı dəyərli və təzə fikir səsləndi, yeni proqram açıqlandı, hansı fərqli yol xəritəsi elan edildi ki, Azərbaycan hakimiyyəti onlara xüsusi diqqət yetirməli oldu? Doğrudanmı, bu adamlar sadə riyazi hesablamalar apara, bütün güclərini ortaya qoyub "Məhsul" stadionuna yığdıqları bir neçə min adamın Azərbaycanda elektoratın son dərəcə cüzi, sıfra yaxın bir hissəsini təşkil etdiyini, tərəfdarlarının, hətta ölkədə mövcud olan seçki məntəqələrinin sayından da az olduğunu görə bilmirlər? Onlar görməsə də, Azərbaycan cəmiyyəti hər şeyi yaxşı görür! Azərbaycan cəmiyyəti yaxşı görür ki, 25 ildən artıq bir müddətdə müxalifət düşərgəsində ərsəyə gətirilən "birlik formatları"nın hər biri mövsümi xarakter daşıyıb, fəslin başında "bu dəfə gəlirik" deyə bir-birinə ümid və təsəlli verənlər axırda yabalaşmaya çıxıblar.

Azərbaycan cəmiyyətinin və onun önəmli bir kəsimi olan gəncliyin nəzərindən yayınmır ki, əvvəllər müxalif düşərgədə yaranan birlik formatlarının avanqard qüvvəsini keçmiş hakimiyyətin "bəlkə də qaytardılar" ümidi ilə yaşayan nümayəndələri təşkil edir. İndi heç keçmiş hakimiyyət nümayəndələri də haçansa tutduqları postlara yenidən qovuşmaq üçün Əli Kərimlinin liderliyini qəbul etmir, onu öz revanş arzularının ifadəçisi kimi görmürlər. Belə olan təqdirdə yeni nəsil niyə öz karyera imkanlarını AXCP-nin sıralarında puç etməlidir?

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlişinin ilk ilində orta məktəbin birinci sinfinə gedən şagirdlər hazırda yeni təhsil sistemi üzrə magistr dərəcəsi əldə ediblər. Onların bir qismi akademik elmi fəaliyyətlə məşğul olmaq üçün təhsilini davam etdirir, xeyli hissəsi isə dövlət qurumlarında, özəl müəssisə və şirkətlərdə çalışır. Onlar bilirlər ki, həm mövcud dövlət idarəçilik sistemi, həm də özəl sektor Azərbaycanda məhz ümummilli lider Heydər Əliyevin, onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin hakimiyyəti sayəsində bərqərar olub. Azərbaycan gəncliyinin məhz bunun fərqində olmasının nəticəsidir ki, Əli Kərimlinin sədrlik etdiyi təşkilatda son bir neçə ildə ali məktəbdən məzun olmuş, dövlət qurumlarını heç demirəm, özəl sektorda uğur qazanmış, vətəndaş cəmiyyəti qurumlarında, mətbuatda öz intellekti və istedadı ilə önə çıxmış gənclər yox səviyyəsindədir. Belə bir ölü təşkilat və həmin təşkilatın sədri ictimai-siyasi proseslərə hansı müsbət dinamika gətirə bilər ki?

İndi ən ucqar kəndlərimizdə böyüyən gənclər dövlətin himayəsi sayəsində aparıcı xarici universitetlərdə təhsilin müxtəlif pillələri üzrə yaxşı perspektiv vəd edən, dünyanın gələcəyini müəyyən edəcək ixtisaslara yiyələnməkdədirlər. Əlbəttə, deyilə bilər ki, AXC hakimiyyəti illərində də xaricə təhsil almağa göndərilənlər olub. Amma o göndərişin coğrafiyası təkcə bir ölkə ilə yekunlaşırdı, tələbələr həmin ölkənin ümidinə buraxılırdı və gənclər zərurət duyulan peşə və ixtisaslara deyil, AXC hakimiyyətinin ideoloji beyinyuma, azərbaycanlıları "yenidən formatlama" siyasətinə uyğun olaraq əsasən filologiya, tarix, sosial elmlər kimi sahələrə yönləndirilmişdilər. AXC və YAP iqtidarlarının fərqi də bundadır: bizim partiya vətəndaşı dövlət və yaxud hansısa ideologiya üçün vasitə, xammal olaraq görmür. Ümummilli Liderimizdən bizə miras qalan ən mühüm tövsiyə budur - dövlət vətəndaş üçündür. Biz gəncləri, cənab Prezidentin ifadə etdiyi kimi, Azərbaycanın gələcəyi olaraq görürük, onların öz milli dəyərlərimizi, milli ruhumuzu qoruyaraq ən çağdaş elmlərə, çağdaş ixtisas və peşələrə yiyələnməsinə çalışırıq... Bəli, İlham Əliyev dövlətin vəsaiti ilə hansısa şübhəli ideologiyalara xidmət edən, antimilli ruh daşıyıcısı olan yeni nəsil yetişdirməklə məşğul olmur, öz milli mənsubiyyəti və doğma Azərbaycanı ilə fəxr edən gəncliyin formalaşması üçün çalışır.

Bütün bunların nəticəsidir ki, Əli Kərimli xalqımızın xüsusi həssaslıq nümayiş etdirdiyi 20 Yanvar günündə Şəhidlər xiyabanına ziyarətə gələn, ümumiyyətlə, onun mövcudluğu ilə maraqlanmayan kütlənin qarşısına keçib, öz ətrafında izdiham görüntüsü yaratmağa çalışırdı. Lakin bu cür illüziyalar yaratmaq istəyi son nəticədə elə öz əleyhinə işlədi və cəmi bir neçə gün sonra Məmmədəmin Rəsulzadənin heykəlinin ziyarətinə on minlərin önündə gedəcəyini bəyan etdiyi halda, Novxanıya 120 nəfərlə daxil oldu. Bu isə onun "liderliyini" dırnaq arasına saldı, ciddiyyətdən nə qədər uzaq olduğunu hər kəsə agah etdi. Bu adamların siyasət anlayışı da qeyri-ciddidir, dedi-qodusu da öz səviyyələrindən o tərəfə getmir.

Əli Kərimli müsahibəsində sual edir ki, "hakimiyyətdə olduğu dövrdə İlham Əliyev Azərbaycan xalqı və dövləti üçün nə edib?" Bu suala mən cavab verəcəyəm və həm də Əli Kərimli və ətrafı kimi subyektiv mülahizələrlə ictimai rə-

# Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları

## Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır

yi manipulyasiya etmək üçün deyil, real faktlarla danışacağam. Müasir dünyada zaman və şərtlər sürətlə dəyişir, Azərbaycan hakimiyyəti məhz dövrün çağırışları, müasirliyin parametrləri, tərəqqinin cazibəsi ilə hərəkət edir. Bugünkü Azərbaycan sosial-iqtisadi baxımdan tam yenilənib. Ötən 15 ildə Azərbaycanın həm paytaxtı, həm də bölgələrimiz müasirləşib, məmləkətimizin dörd bir yanında istehsal və xidmət obyektləri yaradılıb, milyonlarla insan işlə təmin edilib...

2005-ci ilin parlament seçkilərində teledebatlarda çıxış edən o vaxtkı müxalif namizədlərdən biri Azərbaycanın həqiqətən də kiçik olan dövlət büdcəsini Baltikyanı ölkələrdən birinin büdcəsi ilə müqayisə edib, hakimiyyətə gələcəyi təqdirdə, büdcəni 5 milyard manata qədər artıracağını vəd verirdi. İlham Əliyev, əlbəttə belə bir vəd vermədi, amma növbəti seçkilərədək opponentlərinin xəyal etdiyi büdcə göstəricisindən bir neçə dəfə çox büdcə ortaya qoydu. Çünki o, populist vədlər siyasətçisi deyil, real əməl və amal sahibidir. Formalizm, populizm, qeyri-real vədlər, cari, situativ hədəflər naminə dövlətin enerjisinin sərf edilməsi, ancaq gündəlik siyasi tələblər haqqında düşünmək İlham Əliyev idarəçiliyinə yad bir xüsusiyyətdir. Prezidentin özünün də TASS informasiya agentliyinə verdiyi müsahibədə qeyd etdiyi kimi, o, həmişə populizmdən, populist ritorikadan uzaq olub. Azərbaycan iqtidarı çalışıb ki, özünü xüsusi olaraq nümayiş etdirmədən ölkənin uğurlu inkişafı üçün lazım olan addımları atsın.

Prezident İlham Əliyevin 2003-cü ildə qarşıya qoyduğu hədəflərdən biri regionların inkişafını təmin etmək, əyalətlə paytaxt arasında sosial-iqtisadi və mədəni fərqləri azaltmaq idi. Baxın, keçən 15 ildə Azərbaycan regionları, sözün əsl mənasında, inkişaf edib, bölgələrdə müasir infrastruktur yaradılıb. Şəhərlərimizdə müasir mədəniyyət və gənclər mərkəzləri, məktəblər, muzey və parklar, 45 Olimpiya İdman Kompleksi, həm yerli, həm də xarici turistlərin axışdığı istirahət guşələri istifadəyə verilib. Bütün ölkə boyu daimi işıq, qaz, su problemi həll edilib, kommunal xidmət sahəsində narahatlıq doğuran bütün məsələlər əsasən aradan qaldırılıb.

Statistikaya nəzər yetirək: son 15 ildə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib, ümumi daxili məhsul 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, ixracımız 4,7 dəfə artıb. Ölkənin valyuta ehtiyatları 24 dəfə çoxalıb və bu gün 45 milyard dollar təşkil edir. Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və onun yarısı xarici investisiyadır. Ölkədə 2 milyon yeni iş yeri yaradılıb, işsizlik və yoxsulluq həddi 50 faizdən 5 faizə düşüb, əhalinin sayı 1,6 milyon artıb. Bu dövr ərzində maaşlar 7, pensiyalar 9 dəfə yüksəlib. Biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilib, təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb.

Dərin sosial-iqtisadi islahatların həyata keçirilməsi, yolların ən müasir standartlara uyğun yenidən qurulması, 6 hava limanının tikintisi, Oğuzdan Bakıya içməli su çəkilişi və ölkə üzrə su probleminin sistemli şəkildə həlli, 31 yeni elektrik stansiyasının tikintisi və 2500 meqavatlıq yeni güc yaradılması, aqroparklar, meliorasiya tədbirləri, kənd təsərrüfatının canlanması və sürətli inkişafı, sənaye zonalarının işə başlaması, Azərbaycanın 3 peykinin orbitə çıxarılması və onun kosmik dövlətə çevrilməsi, transmilli enerji və nəqliyyat layihələrinin reallaşması - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz layihələrinin işə düşməsi, 4 seqmentdən ibarət "Cənub Qaz Dəhlizi" layihəsinin faktiki reallaşması, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə mühüm işlərin görülməsi, Azərbaycanın beynəlxalq nəqliyyat-tranzit habına çevrilməsi və bu çərçivədə Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi... Bu siyahını kifayət qədər uzatmaq da olar. Əminəm ki, Əli Kərimli də bütün bu reallıqları görür, lakin İlham Əliyev hakimiyyətinin uğurlarını etiraf etmək üçün özündə cəsarət və güc tapa bilmir.

Əli Kərimlinin hakimiyyətdə olduğu illərdən fərqli olaraq, bu gün şagirdlər çantaları ilə yanaşı, özləri ilə məktəbə odun daşımırlar. Çünki son 15 ildə Azərbaycanda 3200 yeni məktəb tikilib və ya əsaslı şəkildə təmir olunub. Vətəndaşlarımız həmin illərdəki kimi soyuq, işıqsız, təchizatsız tibb müəssisələrindən evlərinə daha ağır xəstəliklər taparaq qayıtmırlar. Ona görə ki, 640 tibb müəssisəsi tikilib və ya yenidən qurulub, vətəndaşlarımız pulsuz müayinə imkanlarından bəhrələnirlər. Bu gün Əli Kərimli hansı bölgəyə üz tutsa, avtomobili hamar şoselərdə şütüyəcək, hakimiyyətdə olduğu zamanlarda elementar təmizliyə malik dövlət qonaq evi belə tapmırdısa, indi 4-5 ulduzlu otellər arasında seçim etməli olacaq. Əgər həmin otellərin hovuzundan başını çıxarmağa həvəsi olsa, görəcək ki, kəndlilərimiz tarla əkir, zəmi biçir, mal-qara saxlayır, toxum, yem, texnika problemi ilə üzləşəndə dövlətin dəstəyini alır, məhsuluna alıcı tapmaqda çətinlik çəkmir. Azərbaycan ailələrinin əksəriyyəti son 15 ildə iki açar sahibi olublar - şəxsi ev və avtomobil açarları. Əlbəttə, əhalinin sayı artdıqca, tələbatlar da çoxalır və Azərbaycan hakimiyyəti öz siyasəti ilə artan tələbatlar qarşısında əhalinin rifahının gücləndirilməsini özünün başlıca vəzifəsi hesab edir. Bunun üçün problemləri də öyrənir, çıxış yollarını müəyyənləşdirir, amma heç zaman və birmənalı olaraq xalqa populist vədlər vermir. Məsələn, Azərbaycan dövləti bilir ki, bu gün 12 mindən artıq şəhid ailəsinin hər birinə 11 min manat ödəniş vermək gücündədir və müvafiq addım atır. Amma Əli Kərimli əhalinin kredit borcları üzərində ucuz şou düzəldəndə heç hesablayıbmı ki, bəhs etdiyi 500 min insanın banklara ümumilikdə kredit borcu nə qədər edir və dövlət hazırda bu yükün altına girə bilərmi? Siyasətçi heç olmasa, bir az realist olmağı bacarmalıdır və şəxsi mənfəəti naminə cəmiyyəti populist bəyanatlarla aldatmamalıdır. Ümumən bu rəqəm özü də mübahisəlidir və mütəxəssislər daha kiçik saydan bəhs edirlər. Amma bəri başdan onu da bildirim ki, Azərbaycan dövləti Əli Kərimlisiz də bu problemi öyrənib təhlil edir və əgər qarşıdan gələn dövrdə dövlətin maliyyə durumu buna imkan verəcəksə, kreditlər məsələsi də nəzərdən keçiriləcək və müvafiq qərar qəbul olunacaq. Bir də ki, digər ölkələrin bu və ya digər addımlarından nümunə gətirənlər həmin addımların "seçki rüşvəti" sayıldığını niyə unudurlar? Axı, biz, deyəsən, demokratiyadan danışırıq.

Bax, bütün bunlara görədir ki, Azərbaycan xalqı 1990-cı ilin əvvəllərində ölkə ərazisini "qızılla örtməyi" vəd edərək onu aldadanları da yaxşı xatırlayır, verdiyi hər vədi bircə-bircə yerinə yetirərək Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq möhtəşəm islahatları inamla davam etdirən lideri - İlham Əliyevi də görür və dəstəkləyir.

Görünür, elə gənci, kəndlini, ziyalını, fəhləni, şəhər sakinini, ümumilikdə, cəmiyyətimizi məmnun edən, həmin yeniləşən və inkişaf edən Azərbaycandır ki, Əli Kərimlini narahat edir. İlham Əliyevin hər bir uğuru, onun rəhbərliyi altında Azərbaycanın gündən-günə güclənməsi, çiçəklənməsidir ki, Əli Kərimlini stress vəziyyətinə salır, onun isterik bəyanatlarına, açıqlamalarına səbəb olur. Çünki bütün bunlar nəinki onun çox arzuladığı və gecə yuxuda gördüyü hakimiyyət kürsüsünə yolunu bağlayır, ümumiyyətlə, bir siyasətçi kimi mövcudluğunu sual altına qoyur.

Çox maraqlı situasiyadır: dövlət başçısı şəhid ailələrinə kompensasiya ödənilməsi ilə bağlı Sərəncam imzalayır, minimum əməkhaqlarını 40 faiz artırır, tələbələrin təqaüdlərini yüksəldir, qaçqınlara müasir evlər verir, yeni iş yerləri yaradır, regionları yenidən qurur və abadlaşdırır, sahibkarlara kredit verilir, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi üçün ardıcıl təşəbbüslər göstərir, bir sözlə, sosial müdafiəni dövlət siyasətinin ən ümdə prioriteti elan edir və əməldə də bunun belə olduğunu sübut edir, amma nədənsə, Əli Kərimli yenə narazıdır.

Azərbaycan xalqı yaxşı başa düşür ki, müxalifətin bütün kadr potensialı "ASAN xidmət"in bircə filialını idarə etməyə qadir deyil. Onu da qeyd edim ki, bəli, "ASAN xidmət" ictimai xidmət sektorunda bir inqilabdır. Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır. Hakimiyyəti rüşvət və korrupsiyada ittiham etməyə aludə olan müxalifətin ölkəmizdə nümunəvi bir təsisatın yaranmasına qısqanc münasibəti başa düşüləndir. Axı, cəmiyyət bu günə kimi Əli Kərimlinin təmsil olunduğu hakimiyyətin dövründə hökm sürən dərəbəylik, dövləti talanetmə, total korrupsiya və rüşvət faktlarını unutmayıb. Ən azından Əli Kərimli vaxtilə öz hakimiyyətləri dövründə baş verənlər barədəki məlum çıxışını xatırlasın, xatırlamırsa, çıxışının stenoqramını bir daha oxusun. Buna görədir ki, Prezident İlham Əliyevin cəmiyyətdə şəffaflığın təmin edilməsi, korrupsiya, rüşvətxorluq kimi neqativ hallara qarşı barışmaz mübarizə aparması Əli Kərimliyə və onun ətrafına sərf etmir. Onlar ittiham hədəflərini itirirlər, sözləri kəsərdən düşür və daha heç kimi aldada bilmirlər. Əlləri hər yerdən üzüləndə isə XXI əsrdə rasist təfəkkürünə pənah aparır, məsələn, iddia edirlər ki, ərəb turistlərinin Azərbaycana gəlişi xalqımızı alçaldır. Niyə? 2018-ci ildə Azərbaycana 3 milyona yaxın turistin gəlməsi, ümumilikdə, 2 milyard dollardan artıq vəsait xərcləməsinin nəyi pisdir? Bütün xidmət sektorunun hərəkətə gəlməsi, əhalinin əlavə gəlir imkanlarının artmasının nəyi pisdir? Əli Kərimli və çevrəsinin nə qədər xoşuna gəlməsə də, əlbəttə bunda, Formula 1 yarışlarının, I Avropa Oyunlarının, İslam Həmrəylik Oyunlarının böyük rolu olub. Nədənsə, bütün bu beynəlxalq miqyaslı tədbirlər Əli Kərimlinin və çevrəsinin xoşuna gəlmir. Niyəsi də məlumdur, çünki onların işinə, istək və arzularına yaramır. Axı, bu feodal zehniyyətə Azərbaycana Avropa Oyunlarının deyil, "köhnə qitədən" bəlli çevrələrin inqilab ixracı, Suriyada, Liviyada və s. ölkələrdə olduğu kimi İslam dünyasından silahlı radikal dini qrupların gəlişi, Formula 1 avtomobilləri əvəzinə isə Bakının küçələrində tanklar və topların irəliləməsi daha uyğundur.

Hər kəsin yaxşı xatirindədir ki, cənab İlham Əliyev ilk dəfə Azərbaycan Prezidenti seçilməzdən əvvəl ölkədə bütün çadır şəhərciklərinin ləğv ediləcəyini, qaçqın və məcburi köçkünlərin fərdi mənzillərlə təmin olunacağını vəd etmişdi. O zaman Əli Kərimli və onun keçmiş hakimiyyətdəki "mehriban düşmənləri" bu vədlərin yerinə yetirilməsini mümkünsüz sayır, əleyhinə təbliğat aparır, məcburi köçkünlərə fərdi evlə təmin olunmalarını hətta xəyallarına belə gətirməməyi tövsiyə edirdilər. Heç 19 yanvar mitinqi də hələ olmamışdı.

Bu sahədə görülən işlərlə bağlı bəzi rəqəmləri xatırlatmaq istəyirəm. Prezident İlham Əliyevin verdiyi vədin müqabilində keçən müddətdə məcburi köçkünlər üçün bütün infrastrukturla təmin olunmuş 100-dən artıq müasir qəsəbə salınıb, 55 min ailə, 300 mindən artıq insan rahat mənzillə təmin olunub, başqa sözlə, hətta xəyallarında belə iki daşı bir-birinin üstünə qoymağı bacarmayan müxalifətçilərin deyingənliyinə rəğmən, İlham Əliyev xalqa xidmət amalının misilsiz bir nümunəsini ortaya qoyub. Bu cür nümunələr çoxdur, həddən artıq çoxdur, statistikalar uzanmasın deyə, yalnız bir neçəsini qeyd edirəm:

**Ardı Səh. 10**

www.sesqazeti.az

facebook Ses Media Holding

# Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları

*Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır*

**Əvvəli Səh. 9**

- 1997-2018-ci illər ərzində dövlət tərəfindən Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 6654 mənzil təqdim edilib. O cümlədən 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə 626 mənzil verilib. Bu il isə həmin kateqoriyaya daxil olan vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur;

- 1997-ci ildən etibarən müharibə əlillərinə avtomobillər bağışlanması ənənə halını alıb və bu günə kimi artıq onlara 6144 avtomobil verilib;

- həmçinin cənab İlham Əliyevin 2018-ci ildə Prezident seçildikdən sonra verdiyi ilk Fərmanda şəhid ailələrinin hər birinə 11 min manat ödənilməsinin əks olunması (12.268 şəhidin vərəsələrini əhatə etməklə, ümumilikdə, 135 milyon manat vəsait ayrılması nəzərdə tutulur) faktdır.

Beləliklə, bu qəbildən olan faktları 19 yanvar mitinqinə bağlamaq üçün Əli Kərimlinin "zamana səyahət makinası" kəşf edərək aksiyasını özü ilə birgə keçmişə aparması da lazımdır. Ancaq heç bu da Əli Kərimliyə sərf etməz, ona görə ki, yaxın keçmişə qayıdanda da cənab İlham Əliyevi Prezident seçildiyi ilk gündən xalqın arasında görmüş olacaq. Bu gün dünyada elə ölkə rəhbərləri var ki, ancaq seçkidən-seçkiyə xalq arasına çıxır və ancaq iri şəhərlərdə, meqopolislərdə nitq söyləyirlər. Cənab İlham Əliyev isə cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olub, insanların güzəranı ilə maraqlanıb, problemlərinin həlli ilə bağlı anında tapşırıqlar verib. Lənkəranda bina çökəndə, Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış görüb, əlini küreyində hiss edib.

Əli Kərimli və onun kimilərinin isə ən məşəqqətli günlərində xalqı və dövləti düşmən qarşısında taleyin ümidinə buraxıb aradan çıxmaları, üzləşdikləri siyasi iflas qarşısında milləti aşağılamağa, onun mizan-tərəzisinə lağ etməyə, tarixi və ictimai şüur səviyyəsini ələ salmağa çalışmaları bir yana qalsın, ən sevincli günlərində belə, onunla eyni ovqatı, eyni emosiyanı paylaşa bilməyiblər. 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan əsgərinin şanlı zəfərini aşağılayanlar, bu qələbəyə kölgə salmaq üçün dəridən-qabıqdan çıxanlar yenə də Əli Kərimli, yenə də onun timsalında müqəddəs Azərbaycan davasından fərar edənlər idi. Fərari xislətinə malik olanlar, heç şübhəsiz, Azərbaycanın Ali Baş Komandanının Aprel döyüşləri səngiməmiş öz xanımı ilə birgə cəbhə bölgəsinə səfərini, əsgərlərimizlə bir səngərdə çiyin-çiyinə dayanmasını, ordunun şəxsi heyəti ilə bir süfrədə yemək yeməsini, bir ocaqdan çay içməsini Vətən yanğısı, işğal edilmiş torpaqlarımızın ən qısa zamanda mütləq azad ediləcəyi inamı ilə seyr edə bilməzlər. Azərbaycan hakimiyyətindən asılı olmayan səbəblər üzündən dünya bazarında neftin qiymətinin düşməsinə az qala dəf çalaraq sevinənlər, Silahlı Qüvvələrimizi iki mülki helikopterə möhtac vəziyyətdə deyil, beynəlxalq hərbi araşdırmalara görə, ən müasir cəbbəxanaya malik olmaqla, dünyanın 50 ən güclü hərbi birləşmələri sırasında görəndə, hətta zahirən də olsa, sevgi və sevinc libasına bürünə bilmirlər.

Azərbaycan hakimiyyəti yüzlərlə jurnalisti mənzillə təmin etdi, siyasi dünyagörüşünə fərq qoymadan yüzlərlə qələm sahibini kirayələrdən, yataqxanalardan ayırıb, Bakının ən prestijli ərazisində ev-eşik sahibinə çevirdi. Hətta vaxtilə öz nəzarətində olan qəzetlərdə çalışan mətbuat nümayəndələrinə də "Allah xeyir versin" deməyə mənəvi gücü çatmayan Əli Kərimli iddia edir ki, guya dövlət bu yolla medianı satın alır. Yaxşı olmazmı ki, AXCP sədri ev müqabilində hansısa şərt qoyulub-qoyulmamasını jurnalistlərin özündən soruşsun, dövlətdən hər cür qayğı görən mətbuatın səsini dinləsin?! Bəlkə, vaxtilə kirayə qaldıqları evlərin pulunu ödəyə bilmədikləri halda, qrant layihələrində adlarının qarşısına yüksək məbləğlər yazılan, ancaq həmin məbləğin heç yarısını da Əli Kərimlinin çevrəsindəki QHT-lərdən ala bilməyən jurnalistlərin gözünün içinə baxaraq desin bütün bunları? Avstriya, Danimarka, Fransa və müxalifət fəallarının qrant aldığı Avropa dövlətlərinin əksəriyyətində mediaya, qeyri-hökumət təşkilatlarına milyonlarla yardım verilir. Elə Əli Kərimlinin həvəslə istinad etdiyi beynəlxalq hüquq müdafiə təşkilatları da, əsasən ABŞ, Böyük Britaniya, Almaniya və digər Qərb dövlətlərinin büdcəsindən maliyyələşirlər. Onlardamı satın alınıb? Satın alınıblarsa, bu təşkilatlara niyə istinad olunur, niyə onların iddiaları tirajlanır və hakimiyyətə qarşı təbliğatda istifadə edilir?

Əlbəttə, Əli Kərimlinin müsahibəsində səsləndirdiyi iddiaları bir-bir təftiş edərək, onların hər birinə cavab vermək və Azərbaycan hakimiyyətinin həyata keçirdiyi siyasətin uğurlu nəticələrini sadalamaq olar. Ancaq sözümün sonunda bir məsələyə toxunmaq istəyirəm. Kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə tez-tez belə bir sual səslənir ki, Azərbaycan müxalifəti niyə belə zəif və perspektivsizdir? Əslində bunun səbəbkarı nə Əli Kərimlidir, nə də düşərgənin digər nümayəndələri. Çünki onlar Prezident İlham Əliyevin düşünülmüş, prinsipial milli siyasəti, dövlət başçısının müasir və qüdrətli Azərbaycan naminə açdığı yeni üfüqlər, vətəndaş təşəbbüskarlığına yaratdığı imkanlar qarşısında aciz vəziyyətdə qalmağa məhkumdurlar. Müxalifət üçün nə qədər məyusedici olsa da, deməliyəm: bu pozitiv reallıq hələ uzun illər Azərbaycan xalqına və dövlətinə xidmət edəcək. Heç bir qüvvə Azərbaycan xalqının milli iradəsini sarsıda, bu iradənin ifadəçisi olan Lideri yolundan döndərə bilməz.

# Millət vəkili seçiciləri ilə görüş keçirib

***Millət vəkili Nəriman Əliyevin Masallı rayonunda seçiciləri ilə görüşü keçirilib. Görüşdə rayon ağsaqqalları, ziyalılar və s. seçicilər iştirak edib. Çıxış edən millət vəkili Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu və məqsədyönlü siyasətin Azərbaycan xalqının rifahına, dövlətimizin güclənməsinə yönəldiyini bildirərək, qeyd edib ki, son zamanlar aparılan ardıcıl islahatlar da bu cür qənaətə gəlməyə zəmin yaradır.***



"Prezident İlham Əliyevin aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ veteranlarına göstərdiyi qayğı bu reallıqları özündə birləşdirir. Əbəs deyil ki, O, hər çıxışında yürütdüyü siyasətin prioritetliyinin sosial yönümlü olduğunu və bu siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını vurğulayıb" deyən Nəriman Əliyev, ötən illərdə olduğu kimi, 2019-cu ilin sosial siyasətinin əsas hədəflərindən birinin pensiya və maaşların artırılması olduğunu qeyd edib: "Bir neçə gün əvvəl Prezidentin minimum aylıq əməkhaqqının artırılması, əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı sərəncamları, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərmanı, eləcə də, tələbələrin təqaüdlərinin artırılması ilə bağlı verdiyi qərarı dövlətin xalqa diqqət və qayğısının növbəti bariz nümunəsi oldu. Məhz bu kimi nöqteyi-nəzərdən çıxış edərkən, bildirmək mümkündür ki, Prezidenti İlham Əliyev sosial-iqtisadi sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə, xüsusilə, son vaxtlarda apardığı məqsədyönlü islahatları ilə, ölkəmizin daha da qüdrətlənməsinin, dinamik inkişafının əsas leytmotivini təşkil edib. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Bununla Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlət başçısı İlham Əliyevin hər bir addımda vətəndaşların mənafeyini əsas götürür".

"Əhalinin sosial şəraitinin qorunması sahəsində görülən işlərin məcmusu bu barədə deyilənlərə ən yaxşı misaldır" deyən Nəriman Əliyev, həmçinin, vurğulayıb ki, təkcə son illərdə həyata keçirilən xeyli sayda sosial layihələr Prezident İlham Əliyevin vətəndaşlara, xüsusilə, cəmiyyətin həssas təbəqəsi olan aztəminatlı ailələrə diqqət və qayğısının ən parlaq təzahürüdür: "Bu, ölkə Prezidenti İlham Əliyevin dövlət idarəçiliyi sahəsində nə qədər böyük səriştəyə, təşəbbüskarlığa, insanlara qarşı münasibətdə diqqətə və həssaslığa malik lider olduğunu parlaq şəkildə əks etdirir".

Nəriman Əliyev, həmçinin, qeyd edib ki, bu gün qeyd edilən faktlarla yanaşı, gənclərin də inkişafı üçün mühüm addımlar atılır. Onun sözlərinə görə, ümumən gənclərin, ahılların, qayğıya ehtiyacları olan təbəqənin, habelə, digər vətəndaş kəsiminin daim diqqətdə saxlanılması ardıcıllığını qoruyub-saxlamaqdadır. "Bu mənada, Prezident İlham Əliyev Cənablarının qərarı tək sosial addım deyil, eyni vaxtda humanitar, sosial ədaləti qoruyan, dövlətimizin sosial bazasını möhkəmləndirən və gəncləri dövlətçiliyimizə daha çox bağlayan çox təsirli addımdır, dövlətçilik siyasətinin zəruri tərkib hissəsidir" deyə millət vəkili seçiciləri ilə keçirdiyi görüşündə bildirib.

Görüşdə çıxış edən seçicilər də əldə edilən nailiyyətlərdən, uğurlardan geniş bəhs edərək, bu uğurların, bütövlükdə, Azərbaycan dövlətinin təməllərinin möhkəmləndirilməsinə xidmət etdiyini deyiblər. Eləcə də, Prezident İlham Əliyevin siyasi kursuna sadiq qalacaqlarını bildirən seçicilər bu amal ətrafında daha da sıx birləşəcəklərini qeyd ediblər.

Nəriman Əliyev irəli sürülən təkliflərinin, tövsiyələrinin nəzərə alındığını, deputatlıq fəaliyyətində daim seçicilərinin maraqlarından çıxış edəcəyini vurğulayıb.

***Rövşən NURƏDDİNOĞLU***

## Günter Ottinger Azərbaycana gəlir



Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottinger Azərbaycana səfər edəcək. SİA xəbər verir ki, avrokomissar fevralın 20-də Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında iştirak edəcək. İclasa Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, eləcə də ABŞ, layihə üzvü 7 ölkə, Balkan ölkələrinin yüksək səviyyəli hökumət nümayəndələri, iştirakçı şirkətlər və beynəlxalq maliyyə qurumlarının rəhbər şəxsləri qatılacaq.

## Erməni hərbi ekspert: "Azərbaycan bu gün ən ciddi mühəndis-istehkam işləri aparır"

Ermənistan terror təşkilatlarının hədəfinə düşə bilər. SİA xəbər verir ki, bunu news.am-a erməni hərbi ekspert Van Ambarsumyan deyib. Onun sözlərinə görə, Ermənistan kontingentinin Suriyaya göndərilməsi ölkənin hakimiyyət gücələrinə dəstəyi kimi qiymətləndirilir. "İndiyə qədər Ermənistan terror təşkilatlarının təhlükəsindən kənarda olub, lakin indi belə deyil", bildirən erməni hərbi eksperti qeyd edib ki, ən azından, Suriya münaqişəsinə cəlb edilmiş Avropa ölkələrindəki terror olaylarını xatırlamaq olar: "Bundan əlavə, aydın deyil ki, kontingentin öz təhlükəsizliyi necə təmin olunacaq". Ambarsumyan bildirib ki, Suriya münaqişəsinə cəlb olunmaqdansa, sərhədlərimiz ətrafında yaranmış problemləri həll etmək lazımdır. "Bizim özümüzdə çoxsaylı problemlər var. Azərbaycan bu gün ən ciddi mühəndis-istehkam işləri aparır ki, bu da ona strateji mövqe üstünlükləri əldə etməyə imkan yaradır", deyə erməni hərbi ekspert etiraf etməli olub.

***Rövşən NURƏDDİNOĞLU***

# Prezident İlham Əliyevin vətəndaşların fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə göstərişlərinə uyğun olaraq mühüm layihələr icra edilib

*“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Qorxmaz müəllim, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına həsr olunmuş konfransda cənab Prezident bildirir ki, əhalinin içməli su təminatı daim diqqətdə olan məsələdir və bu istiqamətdə böyük işlər görülüb, uğurlu nəticələr əldə olunub. Görülmüş işlər barədə qısaca məlumat verməyinizi xahiş edirik.***

- Əvvəlcə onu qeyd etmək istərdim ki, regional inkişaf proqramlarının icrası bölgələrimizin tərəqqisinə, əhalinin sosial-rifahının yüksəldilməsinə, ümumilikdə ölkəmizin qüdrətlənməsinə mühüm töhfələr verib. Son 15 ildə bölgələrimizin mənzərəsi nəzərəçarpacaq dərəcədə dəyişib. Şəhər və rayon mərkəzləri ilə yanaşı, kənd və qəsəbələrin böyüməsi, abadlaşması, yeni istehsal, emal və xidmət müəssisələrinin fəaliyyətə başlaması regionlarda həyat səviyyəsinin yüksəlməsindən xəbər verir. Bu istiqamətdə görülmüş işlərə “Azərsu” ASC də öz töhfələrini verib. Möhtərəm Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq mühüm layihələr icra edilib.

Son illər icra edilən içməli su layihələri çərçivəsində məhsuldarlığı sutkada 1,6 milyon kubmetrdən çox olan 39 yeni içməli su mənbəyi istismara verilib. Oğuz-Qəbələ-Bakı su kəməri, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi, Mingəçevir, Quba, Xanbulan sutəmzləyici, Külüllü, Qızılqaya, Göygöl suqəbuledici qurğuları, Şirvan-Muğan, Sabirabad-Saatlı qrup su kəmərləri və bu kimi digər layihələr Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsinə, onların sağlamlığının qorunmasına verilmiş ən böyük töhfədir.

İndiyə qədər su təchizatı layihələrinin icrasına başlanılan 49 şəhər və rayon mərkəzinin 38-dəsu şəbəkələrinin tikintisi başa çatdırılıb. Şəhər mərkəzləri ilə yanaşı, əhalisinin sayı 1 milyon 400 min nəfər olan 1050 kənd və qəsəbənin içməli su problemi öz həllini tapıb.

Regional inkişaf proqramları çərçivəsində bölgələrdə 11 min km-dən çox magistral və paylayıcı su, 6 min km kanalizasiya xətləri çəkilib. Görülmüş işlərin real nəticəsi olaraq mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfə, fasiləsiz su alanların xüsusi çəkisi isə 4,8 dəfə artıb. Beləliklə, hazırda ölkə üzrə xidmət göstərilən əhalinin 69 faizi, regionlarda isə 44 faizə yaxını fasiləsiz içməli su ilə təmin olunur.

***- Ötən il su təchizatı və kanalizasiya sektorunda hansı layihələr reallaşdırılıb?***

- 2018-ci ildə içməli su təchizatı və kanalizasiya sektorunda görülmüş işlər daha da sürətlənib. Yeni iqtisadi şəraitin çağırışlarına uyğun olaraq əvvəlki illərdə başlanılmış layihələr davam etdirilməklə yanaşı, yeni layihələrə də start ve-



rilib ki, bu da ölkə rəhbərliyinin infrastrukturun inkişafına xüsusi diqqət və qayğısından xəbər verir. Ötən il möhtərəm Prezidentin işrirakı ilə Xaçmaz və Xızı şəhərlərində, həmçinin Altıağac qəsəbəsində su və kanalizasiya şəbəkələri, Mingəçevir və Astara şəhərlərində isə içməli su şəbəkələri istismara verildi. Eyni zamanda Ağcabədi və Daşkəsən şəhərlərində su və kanalizasiya, Biləsuvar şəhərində kanalizasiya şəbəkələrinin tikintisi işləri yekunlaşdı. Ötən il cənab Prezident Mingəçevir, Tovuz, Ağstafa, Şirvan, Lerik, Ağdaş və Qəbələ şəhərlərinin içməli su təchizatının yaxşılaşdırılması işlərinin davam etdirilməsi ilə bağlı sərəncamlar imzaladı.Bu sərəncamlar çərçivəsində həm yeni su mənbələrinin yaradılması, həm də şəbəkə infrastrukturunun genişləndirilməsi işləri həyata keçirildi. Qeyd etmək istəyirəm ki, qlobal istiləşmə və quraqlıq nəticəsində bəzi su mənbələrinin məhsuldarlığında baş vermiş dəyişiklikləri nəzərə alaraq Şamaxı, Gədəbəy, Lerik və Tovuz şəhərləri üçün alternativ mənbələrin yaradılması layihələri reallaşdırıldı. Bu olduqca vacib layihələr idi.

2018-ci ildə Bakı şəhəri və Abşeron yarımadasında da bir sıra mühüm layihələr icra olundu. Avtomobil yollarının yenidən qurulması çərçivəsində Babək prospekti, Təbriz, Xiyabani, Mir Cəlal və Məsud Davudoğlu küçələrində su və kanalizasiya xətləri yeniləndi. Təkcə Babək prospektində icra olunan layihələr çərçivəsində 20 km magistral və şəbəkə su xətləri, 3,5 km kanalizasiya xətləri çəkildi. Bu layihənin tərkib hissəsi olaraq 41 Şərq anbarı ilə 82 Şərq su anbarının əlaqələndirilməsi məqsədilə 700 mm diametrli magistral xətt inşa edildi. Yeni yaradılmış infrastruktur NZS, UPD, Keşlə qəsəbələrində, eyni zamanda yeni salınan “Ağ şəhər”də və ona yaxın ərazilərdə əhalinin dayanıqlı və fasiləsiz su təchizatına, eləcə də istehlakçılara göstərilən xidmətin keyfiyyətinin yüksəlməsinə səbəb olub.

Ötən il Bayıl-Bibiheybət-Lökbatan kollektorunun inşası, həmçinin Tədris Mərkəzinin yaradılması və kadr hazırlığı layihəsinin icrası ilə bağlı imzalanmış sərəncamlar çərçivəsində işlər davam etdirildi. Eyni zamanda, kəndlərdə layihələr icra edilib. Ümumilikdə il ərzində 1162 km içməli su, 335 km kanalizasiya kollektoru və xətti, 8 su anbarı tikilib, 26 ədəd subartezian quyusu qazılıb.

***- Qorxmaz müəllim, qeyd etdiyiniz kimi, içməli sudan əziyyət çəkən kəndlərdə layihələrin icrasında ciddi irəliləyişlər var, bu sahədə daha hansı işlər görüləcək?***

- Kəndlərdə içməli su layihələrindən danışarkən bəzi məqamlara diqqətinizi yönəltmək istərdim. Bildiyiniz kimi, respublikamızın kənd və qəsəbələrinin böyük əksəriyyətində mərkəzləşmiş içməli su infrastrukturu mövcud olmayıb. Regional inkişaf proqramları çərçivəsində içməli sudan əziyyət çəkən kəndlərin də problemləri mərhələli şəkildə həll edilir.

Bu sahədə işlər bir neçə istiqamətdə davam etdirilir. İlk növbədə, içməli su çatışmazlığının kəskin müşahidə olunduğu yaşayış məntəqələri müəyyənləşdirilir. Qeyd edim ki, bəzi kənd və qəsəbələr şəhərlərdə həyata keçirilən layihələr çərçivəsində içməli su ilə təmin olunur. Amma elə kəndlər də vardır ki, onlar şəhər mərkəzlərindən, su mənbələrindən və magistral xətlərdən uzaq məsafədə yerləşir. Bu halda həmin kəndlər üçün xüsusi layihələr icra olunur. Qaçqın və məcburi köçkünlərin, sərhəd bölgəsində yerləşən kəndlərin içməli su təchizatının yaxşılaşdırılmasını xüsusi diqqətdə saxlayırıq. Bilirsiniz ki, su mənbələrimizin bir hissəsi işğal altındadır. Biz vaxtilə həmin mənbələrdən qidalanan kəndlərə indi alternativ mənbələrdən içməli suyun verilməsinə çalışırıq.

Son illərdə kəndlərin içməli su ilə təmin olunması istiqamətində işlər intensivləşib. Cənab Prezidentin17 mart 2017-ci il tarixli və 09 aprel 2018-ci il tarixli sərəncamlarına, eləcə də dövlət investisiya layihələrinə uyğun olaraq son 2 ildə içməli sudan ciddi əziyyət çəkən 211 kənddə işlər görülüb. Bu işlər çərçivəsində 900 km magistral və paylayıcı su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 2500 bulaq quraşdırılıb. Bununla da, 330 min insanın keyfiyyətli içməli suya çıxışı təmin edilib. Qeyd edim ki, bu kəndlərdə su təchizatı ümumi istifadə əsasında bulaqlar vasitəsilə aparılır və istifadə olunan suya görə əhalidən ödəniş tələb olunmur. Bu da cənab Prezidentin müəyyən etdiyi sosial siyasətin tərkib hissəsidir.Ötən ilin mart ayından Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balansında olan modul tipli sutəmizləyici qurğular Cəmiyyətimizin xidmətinə verilib. Bunları da nəzərə alsaq, regionların inkişafı proqramının icrasına başlanandan bəri 1050 kənddə 1 milyon 400 mindən çox sakinin içməli su ilə təminatı əsaslı şəkildə yaxşılaşdırılıb.Həm kəndlərin, həm də faydalanan əhalinin sayı görülmüş işlərin miqyasını təsəvvür etməyə imkan verir. Kənd əhalisinin içməli suya çıxışını təmin etmək üçün layihələrin icrası bu il və gələcəkdə də davam etdiriləcəkdir.

***- Bildiyimiz kimi, cənab Prezident tərəfindən “Azərsu” ASC-yə suvarma layihələrinin icrası ilə bağlı da tapşırıqlar verilmişdi. Bu layihələrin icrası ilə bağlı nə deyə bilərsiniz?***

- Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə istifadəsiz torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması barədə cənab Prezident tapşırıqlar vermişdi. Həmin tapşırıqlara uyğun olaraq 2017-ci ildə “Azərsu” ASC tərəfindən Zərdab, Hacıqabul və Şamaxı rayonlarının ərazisində suvarma layihələri icra edildi.

Zərdab rayonunda 10 min hektar sahənin suvarılması məqsədilə Kür çayı sahilində məhsuldarlığı saniyədə 3 kubmetr olan sugötürücü qurğu, nasos stansiyası tikilib, enerji təchizatı sistemləri yaradılıb. Su mənbəyindən əkin sahələrinə 15 km uzunluğunda magistral su xəttiçəkilib və supaylayıcı sistemyaradılıb, əkin sahələrinə suyun verilməsi təmin edilib.

Padarçöl adlanan ərazidə isə 10 min hektar sahənin suvarılması layihəsi çərçivəsində Kür sutəmizləyici qurğusundan əraziyə 27 km magistral kəmər inşa edilib. Bildiyiniz kimi, Padarçöl ərazisinə yaxın məhsuldar su mənbəyi demək olar ki, mövcud deyil. Buna görə də həmin ərazinin relyef baxımından yüksəklikdə olması suyun nasoslar vasitəsilə ötürülməsini zəruri edirdi. Bu məqsədlə 1970-ci ildə istismara verilmiş və bu gün də Bakını içməli su ilə təmin edən Kür sutəmizləyici qurğularının imkanlarından istifadə edildi. Eyni zamanda, Padarçöldə su ehtiyatının toplanması və suyun optimal paylanması məqsədilə ümumi tutumu 50 min kubmetr olan açıq tipli anbarlar inşa edildi. 2018-ci ildə həm Zərdab, həm də Hacıqabul və Şamaxı rayonlarınında vaxtilə istifadəsiz qalan torpaqlardan ilk məhsul götürüldü. Qürurverici haldır ki,Cəmiyyətimiz kənd təsərrüfatının inkişafına, ərzaq təhlükəsizliyinin təminatına da öz töhfəsini verir.

***- Xidmət sahələrində proseslərin avtomatlaşdırılması və İKT-nin tətbiqinə daha geniş yer verilir. Bu sahədə Səhmdar Cəmiyyətdə hansı işlər görülüb?***

- Fəaliyyətimizin əsas istiqamətlərindən biri də istehlakçılara göstərilən müştəri xidmətlərinin səviyyəsinin yüksəldilməsi, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından maksimum istifadə etməklə müştəri məmnunluğunu təmin etməkdir. Diqqətinizə çatdırmaq istəyirəm ki, ölkə başçısının “Elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə” fərmanından irəli gələn tələblərə uyğun olaraq artıq 16 elektron xidmət hazırlanaraq vətəndaşların istifadəsinə verilib.Təkcə ötən il bu xidmətlərdən istifadə ilə bağlı 345 min müraciət qeydə alınıb və bu göstəriciyə görə “Azərsu” ASC dövlət təşkilatları arasında ilk beşlikdə yer alır.

2018-ci ildə Mingəçevir, Şəki və İmişli şəhərlərində fəaliyyətə başlamış “Asan xidmət” mərkəzlərində “Azərsu” ASC-nin xidmət bölmələri yaradılıb. Bununla da, bölgələrdə yaşayan əhalinin xidmətlərimizdən istifadə imkanları genişlənib. Hazırda “Azərsu ASC “Asan Kommunal” mərkəzlərində də əhaliyə xidmət göstərir. Təkcə ötən il bu mərkəzlərə 83 min müraciət daxil olub və həmin müraciətlər operativ şəkildə həllini tapıb. Müştərilərlə işin səmərəliliyinin artırılması məqsədilə bütün regional idarələrdə müştəri informasiya sistemi proqramı tətbiq edilib.

Yeni texnologiyaların tətbiqi sahəsində son illər mühüm layihələr icra olunub və xeyli uğurlar əldə edilib. Son illər tətbiq olunan yeniliklər sırasında AzersuGİS, SCADA, MİS proqramlarını xüsusi qeyd etmək istərdim.

SCADA sistemi hidrotexniki qurğuların və digər avadanlıqların, suyun paylanmasının vahid mərkəzdən idarəedilməsini nəzərdə tutur. Hazırda bir sıra qurğularımızda bu sistem uğurla tətbiq olunur. SCADA sistemi vasitəsilə suyun emal və nəqli üzrə bütün proseslərə onlayn nəzarət edilir. Misal üçün düyə bilərik ki, 2015-ci ildə istismara verilmiş və dünyanın ən böyük ultrasüzgəc qurğusu olan Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksində suyun təmizlənməsi və nəqli tam avtomatlaşdırılıb. Təsəvvür edin, saniyədə 6,6 kubmetr su emal edən bir qurğuda suyun Ceyranbatan gölündən götürülməsindən tutmuş, şəbəkəyə ötürülməsinə qədər olduqca mürəkkəb bir prosesi idarəetmə mərkəzindən bir neçə mühəndis onlayn rejimdə idarə edə bilir.

AzərsuCİS, yeni coğrafi informasiya sistemləri də bu sektorda tətbiq olunan əsas texnoloji yenilikdir. Bu sistem “Azərsu” ASC-yə aid bütün yeraltı və yerüstü infrastruktur obyektləri, qurğu və şəbəkələri haqqında məlumatlarının rəqəmsal xəritələrə işlənməsini, informasiyaların xüsusi proqram təminatı vasitəsilə emalını və müvafiq struktur bölmələrinin istifadəsinə verilməsini, istismar zamanı və qəza halları baş verərkən şəbəkə və təchizat yerinin dəqiq təyin edilməsini, coğrafi sorğu, təhlil və hesabatların hazırlanmasını təmin edir. İndiyədək bu sistemə 17100 km içməli su, 8130 km kanalizasiya və 241 km yağış suyu şəbəkəsi, 6210 ədəd qurğu və qurğu kompleksi, 536 min bina və tikilidaxil edilib.

***- Qorxmaz müəllim, suyun keyfiyyəti həmişə aktual olan məsələdir. Son illər həyata keçirilmiş layihələrdə bu məsələlərə xüsusi diqqət yetirildiyindən xəbərimiz var. Əminliklə deyə bilərikmi, Azərbaycan vətəndaşlarının keyfiyyətli içməli su problemi yoxdur?***

- İçməli suyun keyfiyyəti məsələsi hazırda nəinki respublikamızda, hətta qlobal məkanda aktuallıq kəsb edir. Su təchizatının iki əsas məqsədi var - əhalinin içməli suya əlçatanlığına nail olmaq və keyfiyyətli su ilə təminat. Əhalinin içməli suya çıxışının təmin eilməsi istiqamətində gördüyümüz işlər barədə məlumat verdim.

Ardı Səh. 12

# Prezident İlham Əliyevin vətəndaşların fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə göstərişlərinə uyğun olaraq mühüm layihələr icra edilib

*"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun yap.org.az-a müsahibəsi*

**Əvvəli Səh.11**

Suyun keyfiyyətinə gəlincə, bu sahədə də son illər xeyli işlər görülüb. Əminliklə deyə bilərəm ki, bu gün istər Bakı şəhəri və Abşeron yarımadası, istərsə də regionlarda əhaliyə verdiyimiz içməli sular qüvvədə olan standartlara tam uyğundur. "Azərsu" ASC xidmət təşkilatı olaraq içməli suyun keyfiyyət göstəricilərini daim nəzarətdə saxlayır, eyni zamanda Səhiyyə Nazirliyi içməli suyun keyfiyyətinə dövlət nəzarətini həyata keçirir.

2013-cü ildə Bakı şəhərində istifadəyə verilən Mərkəzi Laboratoriyada ən müasir avadanlıqlar və cihazlar quraşdırılıb. Bu avadanlıqların köməyi ilə həm içməli, həm də tullantı sularının göstəriciləri dəqiq təhlil olunur. Hazırda Mərkəzi Laboratoriyada içməli və tullantı sularının öyrənilən parametrlərinin sayı 110-a çatdırılıb. Halbuki əvvəllər bu parametrlər cəmi 39 idi. Təkcə ötən il laboratoriyada içməli və tullantı sularının 35 min nümunəsi əsasında 174 min parametr təyin edilib və bu göstərici ilbəil artır. Beynəlxalq akkreditasiyadan keçən və dünyanın aparıcı şirkətlərinin təmsil olunduğu səriştəlilik proqramlarına qoşulan Mərkəzi Laboratoriyada aparılan analizlərin nəticələri müvafiq beynəlxalq təşkilatlar və laboratoriyalar tərəfindən də tanınır.

Möhtərəm Prezident İlham Əliyevin "Azərsu" ASC-nin qarşısında qoyduğu əsas tapşırıqlardan biri bütün ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin olunmasıdır. Bu tapşırıqlara uyğun olaraq "Azərsu" ASC tərəfindən regionlarda içməli suyun fiziki-kimyəvi və mikrobioloji analizi məqsədilə regional laboratoriyaların təşkilinə başlanıb. Qeyd edim ki, son illər bölgələrdə yeni su mənbələrinin və su təchizatı infrastrukturlarının istifadəyə verilməsi, həmçinin modul tipli sutəmizləyici qurğuların xidmətimizə verilməsi Mərkəzi Laboratoriyanın yükünü bir qədər artırıb. Düzdür, istənilən ərazidə analizlər aparmaq üçün səyyar laboratoriyalarımız mövcuddur. Ancaq məsafənin böyük olması, su mənbələrinin sayının gündən-günə artması regional laboratoriyaların yaradılmasını zəruri edir. Qeyd edim ki, Mərkəzi Laboratoriyanın təcrübəsindən istifadə etməklə ölkə üzrə 9 regional laboratoriya yaradılıb. Artıq regional laboratoriyamız lazımi cihaz və avadanlıqlarla, həmçinin reagentlərlə təmin olunub. Burada çalışan işçilərin peşəkarlığının artırılması məqsədilə mütəmadi təlim və treninqlər təşkil edilir. Tam əminliklə demək olar ki, hazırda respublikamızın istənilən yerində analizlərin aparılması üçün texniki imkanlar mövcudur.

Laboratoriyaların coğrafi məkanı elə seçilib ki, Azərbaycanın ən ucqar ərazisində yerləşən mənbələrdəki suyun keyfiyyət göstəricilərini də daim nəzarətdə saxlamaq mümkündür.

***- 2019-cu illə bağlı planlarınız nədən ibarətdir?***

- 2019-cu il üçün planlarımız genişdir. Artıq ötən ilin sonlarında cari ilin əsas prioritetləri müəyyənləşdirilib və ilin əvvəlindən nəzərdə tutduğumuz işlərin icrasına başlamışıq.

Bu ilin birinci yarısında regionlarda tikilən ən böyük sutəmizləyici qurğu - Şəmkirçaysutəmizləyici qurğular kompleksi istismara veriləcək. Sutkalıq məhsuldarlığı 140 min kubmetr təşkil edən qurğu Gəncə, Şəmkir və Samux şəhərlərinin, həmçinin magistral kəmərlər boyu yerləşən kəndlərin içməli su təminatı baxımından müstəsna əhəmiyyətə malikdir. Yeri gəlmişkən, qeyd edim ki, qurğudan adsçəkilən şəhərlərə 27 km uzunluğunda Şəmkirçay-Gəncə və 16 km uzunluğunda Şəmkirçay-Şəmkir magistral su kəmərlərinin tikintisi başa çatdırılıb.

Bu il Ağdaş, Qəbələ, Qax şəhərlərində su və kanalizasiya, Xırdalan və Şəmkir şəhərlərində isə su şəbəkələrinin tikintisi yekunlaşacaq. Eyni zamanda, Daşkəsən, Göyçay və Qəbələ şəhərlərində layihələrin son komponenti olan tullantı sutəmizləyici qurğuların inşası tam başa çatacaq. Bununla yanaşı Pirşağı qəsəbəsinin yaxınlığında Xəzər dənizinin sahilində tikilən müasir tullantı sutəmizləyici qurğu da ilin sonuna qədər tikilib təhvil veriləcək. Eyni zamanda 2019-cu ildə 10-dan çox şəhərdə tullantı sutəmizləyici qurğuların tikintisinə başlanılması nəzərdə tutulur.

İslam İnkişaf Bankının krediti və Azərbaycan hökumətinin birgə maliyyələşdirdiyi layihə çərçivəsində Qazax şəhərində, eləcə də büdcə vəsaiti hesabına Horadiz şəhərində yeni layihələrin icrasına başlanılacaq. Bu il içməli sudan əziyyət çəkən kəndlərdə layihələrin, binadaxili kommunikasiya xətlərinin yenilənməsi və sayğaclaşma işlərinin davam etdirilməsi nəzərdə tutulur. Regional idarələrin və laboratoriyaların yaradılması işləri tam başa çatdırılacaq.

Bakı şəhəri və Abşeron yarımadasında da işlər davam etdiriləcək. Paytaxtda optimal su təchizatının aparılması məqsədilə magistral xətlərdə yenidənqurma işləri davam etdiriləcək. Bu il bir sıra çoxmənzilli yaşayış binalarında da daxili kommunikasiyaların yenilənməsi nəzərdə tutulur. Bakıətrafı kənd və qəsəbələrdə mərkəzləşdirilmiş su təchizatı infrastrukturlarının yaradılması işləri də reallaşdırılacaq. Artıq Binəqədi rayonunun Binəqədi qəsəbəsi və Sulutəpə adlanan yaşayış massivində işlərə başlanılıb, Xəzər rayonunun qəsəbələrində tikintiyə hazılıq işləri görülür.

2019-cu ildə müştəri xidmətləri sahəsində də ciddi işlər aparılacaq. Abonentlərin bu xidmətlərdən maksimum istifadə etməsi üçün başladığımız tədbirlərin icrası davam etdiriləcək.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəlməsinə hesablanmış içməli su və kanalizasiya layihələrinin vaxtında və keyfiyyətlə icrası məqsədilə "Azərsu" ASC-nin çoxminli kollektivi 2019-cu ildə də var qüvvəsi ilə çalışacaq və memarı Ulu öndər Heydər Əliyev olan sosial siyasətə öz töhfəsini verəcəkdir.

# Qurban Məmmədov AXCP və Müsavat liderlərinə "od püskürdü"

*"Allaha and olsun ki, heç bir çıxış yolunuz olmayacaq sizin"*

***İngiltərədə yaşayan hüquq müdafiəçisi Qurban Məmmədov xalqa müraciət edərək, AXCP sədri Əli Kərimlini, "Milli Şura"nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəylini və bütövlükdə, ona qarşı kampaniya aparan radikalları ifşa edən açıqlaması ilə çıxış edib. "Facebook" sosial şəbəkəsində status paylaşan Q.Məmmədov, onu "şəriət dövləti yaratmaq" məsələsində ittiham edən AXCP sədri ilə "Milli Şura" üzvünün həmin addımlarını alçaqlıq adlandırıb.***



## "Proseslərdən uzaqlaşdırılmalıdırlar"

"Məni İngiltərə hökumətindən almağın tək bir yolu var. O da İngiltərə dövlətini inandırsınlar ki, mən şəriət dövləti yaratmaq istəyirəm. Guya, mən terrorçuyam. Bax, bunlar belə alçaq hərəkət ilə məşğuldurlar" deyə qeyd edən hüquq müdafiəçisi, həmçinin, bildirib ki, bu adamlar müstəqil deyillər və sifarişlər həyata keçirirlər: "Mən sizə sübut edədim ki, bu adamlar müstəqil deyillər. Müstəqil olsaydılar, üzr istəyərdilər məndən. Bunlar ya müstəqil deyillər, ya da tərbiyələri yoxdur. Hər 2 halda, uzaqlaşmalıdırlar proseslərdən".

## "Dostlar, inanın mənə, bu günə qədər aparılan liderlərin siyasəti kökündən yanlış olub..."

Hakimiyyətə iddialı olan bu şəxslərin tərbiyələrinin olmadığını, ümumiyyətlə, həmin adamların millət üçün təhlükə olduğunu deyən Q.Məmmədov, müxalifətdə təmsil olunan digər partiya üzvlərinə müraciət edib və hətta hakimiyyətlə iş birliyində olduqlarını da iddia olaraq irəli sürüb.

"Tərbiyəsizin gəlib hakimiyyətdə oturması təhlükədir millət üçün" deyə yazan Q.Məmmədov əlavə edib: "Mən buradan AXCP-nin, AXC-nin yəni Azərbaycan Xalq Cəbhəsinin sonradan AXCP, Klassik AXCP və sair adlar altında təşkilatlara qoşulan bütün insanlara müraciət edirəm. Musavat partiyasının sıravi üzvlərinə müraciət edirəm. Dostlar, inanın mənə, bu günə qədər aparılan liderlərin siyasəti kökündən yanlış olub..."

Beləliklə, AXCP və Müsavatın sıravi üzvlərinə müraciət edən Q.Məmmədov qarşıda heç bir uğur qazana bilməyəcəklərini də deyib. "Cəhbəçilər və musavatçılar, liderlərinizin ümidinə qalsanız, Allaha and olsun ki, heç bir çıxış yolunuz olmayacaq sizin" deyə hər iki müxalifət partiyası üzvlərini liderlərindən imtina etməyə çağırıb.

***Rövşən NURƏDDİNOĞLU***

# Sərdar Cəlaloğlu: "Onlar yalnız bir-birini məhv etmək üçün bir araya gələ bilərlər"

***Keçmiş daxili işlər naziri, AMDP sədri İsgəndər Həmidovun təşəbbüsü ilə "Müxalifətin zirvəsi" dağıdıcı düşərgə arasında növbəti qalmaqalın baş verməsinə səbəb olub. Düşərgə təmsilçiləri, nəinki bu təşəbbüsə qoşulmaq istəyiblər, əksinə, qalmaqallı vəziyyətin daha pik nöqtəsinə qalxmasına səbəb olublar. Bu gün də bu qarşıdurma səngimir.***



Belə ki, "REAL"ın icra katibi Natiq Cəfərli qeyd edib ki, bu tədbirə qatılmayacağımızı bildirmişik: "Ancaq səhv etdik. Bildirmişdim ki, indiyə kimi müxalifətin 11 birliyi olub, heç biri də uğurlu olmayıb. Gərək sözümüzün üstündə duraydın. Çünki bu gün nəticə göz qabağındadır. Birlikdən söhbət gedə bilməz. 19 yanvarda keçirilən mitinq bir daha bunu sübut etdi".

Göründüyü kimi, müxalifətin zirvə görüşünə qatılmayan müxalif siyasilər peşman olduqlarını bildirirlər.

## Sərdar Cəlaloğlu: "Onların birliyi heç vaxt real birlik ola bilməz"

ADP sədri Sərdar Cəlaloğlu isə bildirib ki, İ.Həmidovun cəhdi mənasız təşəbbüsdür: "Baxın, istər keçmiş SSRİ respublikaları, istərsə də dünyada müxalifət bir araya gəlir. Azərbaycanda müxalifətin bir araya gəlməsi ancaq hakimiyyətin dəyişilməsinə görə ciddi bir problemə çevrilib. Bu da müxalif liderlərin, bilavasitə məsuliyyətsizliyidir. Dünənə qədər heç bir birliyi yaxına buraxmayan bəzi "liderlər" İsgəndər Həmidovun bu ideyası ortalığa çıxandan sonra, guya yeni bir birlik təşəbbüsü ilə çıxış edirlər. Biz də bilirik ki, bu birlik təşəbbüsü edən adamlar, əksinə, bir-biri ilə düşmən münasibətdədir. Onların birliyi heç vaxt real birlik ola bilməz".

S.Cəlaloğlu tez-tez mətbuatda "birlik" ifadəsinə əsəbləşərək, onu da bildirib ki, gücləri itirilmişlər hansısa "birlikdən" danışa bilməzlər: "O partiyalar güclərini itiriblər. Bilirsiniz ki, müxalifət pariyaları arasında çox ciddi aşılanma gedir, böyük ziddiyyətlər var. Müxalif partiyaları bir-birinə qarşı çox ciddi ittihamlara malikdirlər. Ona görə də, mən düşünürəm ki, bu "birliyi" də əvvəlki aqibət gözləyəcək və buna son qoymaq lazımdır. Bir halda ki, onlar özlərinin birlikdə olmalarına imkan vermirlər, o zaman "birlik"dən danışmağa dəyməz".

***R.HÜSEYNOVA***

# Rüstəm İbrahimbəyov Əli Kərimlini peşman elədi

*Müxalifət mitinq keçirməyə cəhd etməklə gündəmə gəlməyə çalışır*





**Müxalifətdaxili intriqaların və qarşıdurmaların genişləndiyi bir məqamda, bəzi partiyalar bir araya gələrək mitinq keçirmək haqqında fikirlər səsləndirirlər.**

Daha doğrusu, "Milli Şura" deyilən qondarma qurum növbəti aksiya keçirmək haqqında qərar qəbul edib və sosial şəbəkələrdə tərəfdar axtarışına çıxıb. Bu arada "Milli Şura"nın keçmiş sədri Rüstəm İbrahimbəyov Bakıya gəlib. Bəziləri onun mitinqə qatılacağını, hətta çıxış da edəcəyini bildirirlər. Ancaq R.İbrahimbəyov növbəti addımları ilə ondan dəstək gözləyənləri peşman edib. 80 illik yubuleyinə belə AXCP, Müsavat, "Milli Şura" və ümumiyyətlə, heç bir partiya yetkilisini dəvət etmədi. Bu, azmış kimi, onlara öz iradlarını çatdırmaqla salam-kəlamsız ölkəni tərk edib. Söhbət etdiyimiz müsahiblərimiz R.İbarahimbəyovun müxalifət nümayəndələri ilə bir araya gəlməkdən imtina etməsini onun AXCP, Müsavat, "Milli Şura" təmsilçiləri ilə əlaqəni kəsməsi anlamına gəldiyini bildirdilər.

**Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: "Rüstəm İbrahimbəyov müxalifətlə məsafə saxlayır"**

- Rüstəm İbrahimbəyov bəyan edib ki, mən Bakıya 80 illik yubileyimi keçirmək üçün gəlmişəm. Son dövrlərdə də görünən odur ki, o, müəyyən qədər "Milli Şura" ilə məsafə saxlayır. Əvvəllər Cəmil Həsənli ilə danışardı və başqaları ilə əlaqə qurardı. Amma son dövrlər onun hansısa müxalifət təmsilçisi ilə əlaqə saxlamasına dair məlumat yoxdur. R.İbrahimbəyovun özü, dəfələrlə etiraf edir ki, "indiki yaşımda mən vətən üçün darıxıram". Hiss olunur ki, o, müxalifətlə məsafə saxlayır. Xüsusən, Azərbaycanı aşağılayan o filmindən sonra o, başa düşdü ki, xalqın gözdən düşüb. Yəni R.İbrahimbəyov bu dəqiqə öz başının hayındadır. Bir sözlə, birmənalı şəkildə demək olar ki, R.İbarhimbəyov hazırkı məqamda bütün müxalifət partiyaları, onların funksionerləri ilə münasibət qurmaqdan yayınır. Bu isə artıq onun öz səhvini başa düşdüyünü göstərir. O ki qaldı müxalifətin anormal hərəkətlərinə, o halda, demək olar ki, bunlar başlarını itiriblər. Müxalifət dərk edir ki, onlar arqumentsizdilər. Bu baxımdan heç özləri də bilmirlər ki, nə etsinlər. Bəzən çaşqın halda olduqlarından, başlarından böyük vədlər verirlər. Hətta ümummilli hüzn günü - 20 Yanvar faciəsindən öz siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərdilər. Bunlar xarici ağalarından asılı olduqlarından məcburdurlar ki, hansısa mitinq təyin eləsinlər. Ümumiyyətlə, bu günə qədər müxalifət düşərgəsini təmsil edən şəxslər tərəfindən keçirilən mitinqlərin heç bir nəticəsi olmayıb və bundan sonra da olmayacaqdır. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Belə olan halda, onlar hansı mitinqlərin keçirilməsindən danışa bilərlər? Yaxşı olardı ki, müxalifət bu cür yersiz hərəkətlərinə son qoysun. Çünki bu cür hərəkətləri ilə özlərini daha da gözdən salırlar.

**Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Rüstəm İbrahimbəyov müxalifətlə bütün əlaqələrini kəsib"**

- Rüstəm İbrahimbəyov müxalifətlə bütün əlaqələrini kəsib. Onun Bakıya gəlişinin də məqsədi öz yubileyini keçirməklə bağlı idi. O, yubiley tədbiri keçirdi, ancaq onları dəvət etmədi. Yəni müxalifət təmsilçilərində o tədbirdə iştirak edən olmadı. Bu da, onu göstərir ki, bunlar arasında hər hansı bir mənəvi xətt və yoldaşlıq prinsipi yoxdur. Bunlar konkret dövrədə konkret maraq adamıdırlar. Yəni maraq üst-üstə düşürsə yaxınlaşırlar, düşmürsə aralanırlar. Amma fakt odur ki, bu il başlayandan müxalifət düşərgəsini təmsil edən şəxslər bir necə dəfə aksiya keçirib və hər dəfə aksiya keçirəndə də, məlum olur ki, bunların deməyə yeni sözləri yoxdur. Hər dəfə təkrar-təkrar eyni fikirləri səsləndirirlər və sonradan aydın olur ki, səsləndirdikləri fikirlərin, ümumiyyətlə, heç bir əsası yoxdur. Bu baxımdan, onlar mitinq keçirməyə cəhd etməklə gündəmə gəlməyə, diqqət mərkəzinə çevrilməyə çalışırlar. Yəni müxalifət özünü gündəmdə saxlamaq üçün bu cür hərəkətlərə əl atır. 25 ildir ki, müxalifət bu cür mənasız və əhəmiyyətsiz yolla gəlir. Qısası, müxaliflərin mitinq keçirmək arzuları növbəti uğursuz variantlardan biridir.

**GÜLYANƏ**

# Tural Sadıqlının ifşası davam edir

*Qurban Məmmədov da onu hədəfə aldı*



***Avropada "söyüş müxalifət"çiliyi edən xainlər yığnağının reallıqda nə qədər qeyri-insani hisslərə malik olmaları barədə dəfələrlə yazılıb, faktlara əsaslanan araşdırmalar ictimai rəyin diqqətinə çatdırılıb. Əbəs deyil ki, qrantlar uğrunda, hətta bir-birlərinə qarşı olmazın həqarətlər ünvanlayan Avropada məskunlaşmış "söyüş müxalifəti"nin təmsilçiləri barədə növbəti ifşa faktı, məhz Qurban Məmmədov tərəfindən diqqətə çatdırılıb.***

Əslində, bu fakt barədə "Səs" qəzeti olaraq, hələ bir il qabaq yazı ilə çıxış etmişik. Bu faktın növbəti dəfə ictimailəşdirilməsindən sonra bir daha bəzi xatırlatmaları etməyimizə ehtiyacın yarandığını qeyd edə bilərik. Söhbət isə Tural Sadıqlıdan, eləcə də, "Müsavat-AKM"dən gedr. Daha doğrusu, bu təşkilat, bilavasitə saxta sənədlər düzəldib-satmaqla və s. çirkin əməlləri reallaşdırmaqla məşğuldur.

## Tural Sadıqlı evlənəcəyi qızın ailəsinə Almaniyada daimi oturum izni olduğunu yalan söyləyib!

Demək, T.Sadıqlı hələ 3 il öncə, Almaniyanın Nürenberq şəhərində qaçqın statusunda yaşayarkən, bir xoşməramlı ailə onu, necə deyərlər, "baş-göz", yəni evləndirmək qərarına gəlib. Bu məqsədlə Sadıqlını evləndirmək istəyən ailə Moskvada yaşayan digər dost ailənin qızını onunla tanış edib və nədənsə, Tural qızın ailəsinə Almaniyada daimi yaşayış izni olduğunu yalan söyləyib (?!-R.R.). Halbuki o, bu yalanı ilə başqa bir ailənin heysiyyatı ilə oynayıb və qızı Nürenbergə gətirəndən sonra onu qaçqın statusu ilə düşərgəyə yerləşdirib. Düzdür, o, toy da edib, həmin qızla evlənib də...

## Amma..!

Evləndiyi gündən özünə həyat yoldaşı etdiyi həmin qıza gün-güzəran verməyən T.Sadıqlı dəmə həyatda özünü təqdim etdiyi kimi "mülayim" insan da deyilmiş. Buna sübut kimi, Turalın hər gün onu döyməsi və nəticədə, yoldaşının iki dəfə xəstəxanaya düşməsi faktını göstərmək olar. Belə davam edə bilməyəcəyini görən xanım, Turaldan ayrılmaq qərarını verib, özü də dörd aylıq hamilə (!) olduğu vəziyyətdə...

Sonrakı məqamlara da diqqət yetirək. Belə ki, T.Sadıqlıdan ayrılan xanımına Almaniya dövlətinin müvafiq qurumları və Nürenberqdə yaşayan azərbaycanlı ailələr dəstək olublar. Çünki onun ailəsi bu gün də Rusiya vətəndaşıdır və Moskva şəhərində yaşayır.

## Keçmiş qayınatasının ölümünə baiskar da Tural Sadıqlıdır!

Dəhşətli məqam isə budur ki, qız övladının ailə bədbəxtçiliyinə, daha doğrusu T.Sadıqlının öz həyat yoldaşının başına gətirdiyi oyunlarına dözə bilməyən qızın atası baş verən hadisələrdən sonra kəskin infarkt keçirir və 42 yaşında həyatını itirir. Ancaq bir ailənin taleyinə bu qədər mənəvi və fiziki zərbələr vuran T.Sadıqlının baş verənlərdən "tükü belə tərpənmir"!

Beləliklə, insanların taleyi ilə oynayan, hətta ölümə baiskar olan T.Sadıqlı hələ də daimi oturum izni ala bilməyib. Çünki onun keçmiş həyat yoldaşı ondan bir qız övladı dünyaya gətirsə də, Almaniya hökumətinin müvafiq qurumlarından Turalı atalıqdan məhrum edən sənəd alıb. Əlbəttə ki, burada T.Sadıqlının onu iki dəfə möhkəm döyərək, xəsarətlər yetirərək xəstəxanaya yerləşdirilməsindən tutmuş, digər bəd əməlləri onun daimi oturum izni almaq şansını sıfıra endirib. İndi də həmin izni ala bilməyən T.Sadıqlı yenidən övladına atalıq haqqı almaq üçün məlum əməllərə əl ataraq, kimlərinsə sifarişlərini həyata keçirir. Ancaq söz yox ki, ondan ayrılan sabiq həyat yoldaşı buna imkan verməyəcəyini deyir. Çünki T.Sadıqlının digər əməllərini kənara qoyaraq, təkcə həmin xanımın atasının ölümünə səbəb olduğu bir insan övladının "ata" deyə müraciət etməsi ən ağır mənəvi zərbə hesab edilə bilər.

Nəticədə, biz, bu gün Avropada "siyasi mühacir" adı altında çirkin məqsədlərə xidmət edənlərdən yalnız biri haqqında araşdırma apararaq, həmin şəxsin necə "insan" olduğunu ortaya qoyduq. Yəni saxta sənəd alverindən başlayaraq, qeyri-insani davranışlara qədər bütün çirkin xüsusiyyətlərə malik olan T.Sadıqlı bundan sonra özünü təmizə çıxarmağa çalışsa belə, bu, onda alınmayacaq. Çünki bütün faktlar ortadadır və qaçmağa da yeri yoxdur.

**Rövşən NURƏDDİNOĞLU**

# "Quş qripi" xəstəliyinə görə növbəti monitorinq keçiriləcək



"Quş qripi"nin Azərbaycana köçəri quşlarla keçmə ehtimalını diqqət mərkəzində saxlayan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) ölkə miqyasında ardıcıl monitorinqləri davam etdirir. Dövlət Baytarlıq Xidmətindən AZƏRTAC-a bildirilib ki, fevralın 25-dən martın 1-dək köçəri quşların miqrasiyasını nəzərə alaraq növbəti monitorinq keçiriləcək. Monitorinq Dövlət Baytarlıq Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mütəxəssis və əməkdaşlarının iştirakı ilə aparılacaq. Monitorinqin köçəri quşların müvəqqəti məskunlaşdığı Pirallahı adasındakı Abşeron Milli Parkında, Şabran rayonundakı Ağzıbir ovçuluq təsərrüfatında, Salyan rayonundakı Şirvan Milli Parkında, Ağcabədi rayonundakı Ağ göl Milli Parkında və Lənkəran rayonundakı Qızılağac Dövlət Təbiət Qoruğunda həyata keçirilməsi nəzərdə tutulur.

# Azərbaycanda 62 min 484 nikah və 14 min 857 boşanma qeydə alınıb



Ötən il ölkəmizdə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 62 min 484 nikah və 14 min 857 boşanma qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4, boşanmaların sayı isə 1,5-ə bərabər olub. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumata görə, nikahlar Kəlbəcər-Laçın (əhalinin hər min nəfərinə 6,8), Şəki-Zaqatala, Quba-Xaçmaz, Aran və Dağlıq Şirvan iqtisadi rayonlarında (6,7), Bakı şəhərində (6,6), boşanmalar isə paytaxtda (2,1), Kəlbəcər-Laçın (2), Abşeron və Yuxarı Qarabağ iqtisadi rayonlarında (1,8) ölkə səviyyəsindən yüksək olub.

# Mixeil Saakaşvili damarlarında erməni qanı axmadığını sübut edib



Gürcüstanın sabiq Prezidenti Mixeil Saakaşvili damarlarında erməni qanı axmadığını sübut edib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, sabiq dövlət başçısı "bütün qonşularına hörmətlə yanaşdığını, digər millətlərdən olan vətənpərvərləri sevdiyini" bildirib. Eyni zamanda, onun milliyyəti ilə bağlı şayiələrə son qoymaq üçün ABŞ-da genetik testdən keçdiyini də söyləyən Saakaşvili deyib ki, nəticələr onun 98,3 faiz gürcü olduğunu göstərib. Min il əvvəl insanın etnik mənsubiyyətini aydın göstərən bu test Gürcüstanın sabiq Prezidentinin damarlarında 1 faiz də yunan qanı axdığını müəyyən edib.

Mixeil Saakaşvili özünün Facebook səhifəsində onu da əlavə edib ki, uzun əsrlərboyu onun əcdadları heç bir başqa millətlə qan qarışdırmayıb, təkcə o, avropalı qadınla evlənərək bunu edib. O, testin nəticələrinin surətini də səhifəsində yerləşdirib.

# Müxalifətin növbəti mitinq iflası

## *Dəyişməyən təfəkkür, əxlaqsız çağırışlar*

***Dağıdıcı müxalif ünsürlər anlamalıdırlar ki, xalq onları qəbul etmir və bu antimilli düşərgənin heç bir aksiyasını dəstəkləmir. Ölkəmizdəki dağıdıcı müxalifətinin, o cümlədən, anti-Azərbaycançı qüvvələrin sifarişləri ilə yaradılan qondarma “Milli Şura” deyilən ölü qurumun fəaliyyətinin hər bir epizodu Azərbaycan cəmiyyətinə bəllidir. Azərbaycan dövlətinin və xalqının milli maraqlarına əks-mövqe tutmaq və ölkə mənafeyinə zidd hərəkət etmək bu qüvvələrin “konsepsiya”sına çevrilib.***

Düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınları - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Rüstəm İbrahimbəyov, Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl ... və həmişə olduğu kimi, bu gün də 5-10 avro müqabilində erməni puluna satın alınmışlar beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışırlar. Yenə də, artıq ötən həftədən başlayaraq, fevralın 23-nə təyin etdikləri mitinqlə bağlı dəyişməyən təfəkkürlə çıxışlar edirlər. Yenə də, əvvəlki mitinqlərdə olduğu kimi, Avropada “siyasi mühacir” adı altında yaşayanlara da çağırış etdilər ki, bütün müxalifət cəbhəsinin təmsilçiləri “birləşin”, “çəkici bir zindana döyün” də deyirlər. Abırsızlıq və əxlaqsızlıq buna deyərlər. Ötən mitinqlərdə biabırçılığınızdan bir ibrət



dərsi niyə götürmədiniz? Bir də olmayan şeyi necə tələb etmək olar? Satqınlarda və əxlaqsızlarda nə abır?

### Taylı-tayın tapar və ya “siyasi mühacir”lərin əxlaqsız çağırışları

Satqınlıq tarixən əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan kəslər üçün isə, satqınlıq etmək adi bir şeydir. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər ki, bu da, “taylı tayını tapar” məsəlinin hər zaman özünü doğrultmasından irəli gəlir.

Bəli, bunlar o əxlaqsız “siyasi mühacirlər”dir ki, aldıqları qrantlara görə bütün mənəviyyatlarını sataraq, anti-Azərbaycan kampaniyalar təşkil edirlər. Faktlar da bunu təsdiqləyir. Belə ki, Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər və yaxud da tarixi və önəmli günlər, ən əsası isə, xalq-iqtidar birliyinin olmasından qıcıqlanan bu zəhərli parazitlər, elə zənn edirlər ki, xarici ölkələrdə Azərbaycan əleyhinə çağırışlar etməklə nəyəsə nail olacaqdar. Ancaq anlamırlar ki, AXCP sədri Ə.Kərimli, C.Həsənli və digər onun kimi antimilli şərəfsizlər bu gün çirkin əməllərinə görə qrantlarla təmin olunur və bu qrantlar isə, onları üz-üzə qoyaraq, qırğına çıxırlar. Bu gün hansı formadasa mitinq keçirmək istəkləri isə, yenə də iflasa uğrayacaq.

Bu, o dağıdıcı qüvvələrdir ki, adi kriminal hadisəni siyasi avantüraya çevirmək, miqyasını böyüdərək süni rezonans yaratmaq, bununla da, sabitliyi pozmaq və ən nəhayət, Azərbaycanda öz xain niyyətlərini həyata keçirməyə nail olmayıblar və bundan sonra da olmayacaqlar. Qoy həmin qüvvələr bilsinlər ki, bütün bunlar əbəs cəhdlərdir. Suyu bulandırmaq cəhdlərinin perspektivi yoxdur. Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilmәlidir ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər. Ə.Kərimli, E.Milli, L.Yunus, X.İsmayıl, N.Adilov və bu kimi satıbsatılan ünsürlər həmin xarici qüvvələr tərəfindən bir əlcək kimi istifadə olunub kənara atılır. Bundan sonra da başlayırlar öz aralarında bir-birinin paxırını açmağa. Bu, belə də olub və olmaqdadır. Çünki onların əsl mahiyyəti alət olmaqdır.

***R.HÜSEYNOVA***



AFƏT

## Daha bəsdir, ay Əli!

***30 ilə yaxındı, gözləri yol çəkirdi. Başqa bir dərdi də yox, dərd iqtidar dərdiydi. Axı daha neyləyim, nə deyirsiz edirəm, - “dayı”larına dedi AXCP-çi Əli... Hakimiyyət həsrəti Əliyə bir dərd idi, gözlərinin önündə bu dərd ona dağ idi. Gecə-gündüz həsrətdən qulaqları şəkdəydi, amma xəbər yox idi, nə də ətər yox idi. Yalnız əmr gəlirdi, əmr də ki, mitinqdir. Fikirləşir bu Əli, nə edim, necə edim, axı bu hakimiyyətə siz deyin, nə cür gəlim?! Bütün aləm bilir ki, sözdən çıxan olmadım. Soros dayının əmrinə mən naxələf çıxmadım. Əliyə pul-paralar vermişdilər vaxtilə, indi dollar almayan Əli gələrək dilə, söylədi “dayı”sına bir neçə acı kəlmə:***

- Vur deyirsiz vururam, dur deyirsiz dururam. Hətta söyül, tüpürül, ona da xub deyirəm. Hərəniz bir tərəfdən üzümə ağ oldunuz, məni tənha qoydunuz. İndi də məhkəmədə “üzümə dayanırlar”, məni dərdə salırlar. Verdiyiniz pulları mən qarnıma ötürdüm, cüzi bir hissəsini dostlar ilə bölüşdüm, amma yenə yetmədi...

Oğlum “qəriblikdədi”, gərək o, darıxmasın. Onu elə yaşadım, ürəyi sıxılmasın, axı balam “uşaqdı”. Məni də başa düşün, daha mən qocalıram. Nə qədər qocalsam da, sədrlikdən doymuram. İddiam çox böyükdü, iqtidara gəlim mən, daha bundan sonrası sədr olmaq istəməm. Niyə məni atdınız, belə danışmamışdıq?! Axı daha neyləyim, bu mən, bu siz, bu meydan?

Qəzəbdən “dayı”sının gözləri dörd olmuşdu. Əlinin sözlərindən beyninə qan vurmuşdu. Fikirlər, düşüncələr qəlbini çox sıxırdı, “mitinqə” deyən kimi, o, mitinqə çıxırdı. AXCP-nin sədri indi qaşa da bezar, amma zərrə qədər də onda yoxdu həya-ar. Bu qədər əmrləri yerinə o yetirir. Biz istəyən formada mitinqlər olmasa da, dolların haqqını azdan-çoxdan ödəyir. “Dayı” azacıq ona hardasa “haqq” versə də, üzə qayıtmasına yamanca hirslənmişdi. O baxımdan “dayı”nın sinirləri gərildi, “bundan sonra görərsən” deyə o, fikirləşdi, barmaqları büküldü, görünən isə şişdi... Sonda qərara gəldi: “Daha bəsdir, ay Əli”, yetərincə işlətdik, indi ağıllanmışıq, deyəsən, illərdir ki, səni yaman bəslədik...

# İki AXCP arasında qalmaqallar davam edir

## Razi Nurullayev: “Yurd” sədri təbiətcə diktatordur. Ətrafına hörmət qoymaqdan söhbət belə gedə bilməz”

***Uzun müddətdir ki, Əli Kərimlinin sədri olduğu AXCP ilə alternativ AXCP sədri Razi Nurullayev arasında kəskin qarşıdurma yaşanır. Hər iki siyasi təşkilatın eyni ada iddiaları isə, vəziyyətin daha da gərginləşməsinə səbəb olmaqdadır. Dəqiq desək, R.Nurullayev Ə.Kərimlinin öz liderinə - Əbülfəz Elçibəyə xəyanət etdiyini hər dəfə xatırlatmaqla, cəbhə adına iddialı olmasının doğru olmadığını deyir. Belə ki, anti-Kərimli xarakterli yazısı ilə çıxış edən R.Nurullayev qeyd edir ki, onu, yəni R.Nurullayevi AXCP adına iddia etdiyinə görə, qınayanlar var və s.***



### “AMİP-in sabiq sədri Yusif bəy incikliyini mənə çatdırdı və dedi ki, Əli Kərimli mənə zəng edir...”

“Əslində, bu gün özünü Ə.Kərimliyə yaxın bilən və ya onun kölgəsində kiçik və mənasız siyasət oyunu oynayıb, özünü siyasətçi sayanlar da, çox gözəl bilirlər ki, “Yurd” sədri ilə onlar arasında Himalay dağı boyda uçurum var” deyə yazan Nurullayev qeyd edir: “Bu uçurumu doldurmaq isə onların gücü daxilində deyil. Nə qədər oyun qursalar da, “Yurd” sədrindən iyrənc siyasi oyun qura bilməyəcəklər. Hər kəs bilir ki, o nə göründüyü kimidir, nə də danışdığı qədər var. “Yurd” sədri təbiətcə diktatordur. Ətrafına hörmət qoymaqdan söhbət belə gedə bilməz. Digər partiya sədrlərini pis vəziyyətdə qoymaq və onları alçaltmaqdan zövq alır”.

Bu arada, AMİP-in sabiq sədri Yusif Bağırzadənin də xatırlatmasını yada salan alternativ AXCP-nin sədri sözügedən yazısında qeyd edir: “AMİP-in keçmiş sədri Yusif Bağırzadə incimәsin, amma onun mənə söylədiyi bir məsələni deyəcəyəm. Yusif bəy incikliyini mənə çatdırdı və dedi ki, Ə.Kərimli mənə zəng edir, nəsə deyir və mənim cavabımı gözləmədən “otboy” verir. Mənimlə köməkçisi Faiq bəy kimi davranır və mən abrıma-həyama bükülüb, səsimi çıxarmıram. Həmin vaxt Ə.Kərimlinin yerinə Yusif bəydən mən üzr istədim.Yusif bəy bu məsələnin gizli qalmasını istəmişdi, amma özümə borc bildim ki, bunu “Yurd” sədrinə deyim. O isə, sadəcə, güldü və üzünə lovğalıq ifadəsi qondu...”

### “Partiya dediyi təşkilatında heç zaman azad söz olmayıb, indi də azad söz yoxdur”

“Onun avtoritar düşüncəsi, nəinki cəmiyyətin digər kəsiminə, iqtidara və ya digər müxalif qüvvələrə, hətta öz partiyadaşlarına belə qısqanclığı, fikir müxtəlifliyinə dözümsüzlüyü, aqressiyası müxalifətin səmimi mübarizəsini əngəlləyirdi və bu gün də əngəlləməkdədir” deyə qeyd edən R.Nurullayev əlavə edir ki, Ə.Kərimli, doğrudan da, təşkilatında daxili avtoritarizm yaratmışdı və heç bir daxili demokratiya bu gün də yoxdur: “Partiya dediyi təşkilatında heç zaman azad söz olmayıb, indi də azad söz yoxdur. Təəssüf edirəm ki, Əli bəyin tənqidə və fərqli fikirə də dözümü yoxdur. Partiya dediyimiz bir səhmdar təşkilat kimi qurumdur. Hər bir cəbhəçi onun səhmdarıdır. Razıyam ki, birinin bir, o birinin iki, bəzilərinin isə 100 səhmi ola bilər. Amma 20 ildir ki, insanların səhmi əlində yanıb. Onlar bu səhmlərdən xeyir götürə bilməyiblər. Bütün səhmlər Ə.Kərimliyə xidmət edib və etməkdədir. Biz niyə cəbhəçinin başının altına hər dəfə yastıq qoymalıydıq ki, gəlirik? Axı necə gəlirdik, niyə cəbhəçilərə yalan söyləməkdə davam edirdik? Buna qarşı oldum. Mən və tərəfdarlarımın səhmindən istifadə etmək, səhmdar hüququmdan istifadə edib, dəyişiklik gətirmək istədim. Buna təhamül edə bilmədi. “Səhmdar var, səhmlər yox”- dedi”.

### “Bütöv milli və qlobal siyasət “like” etmək, paylaşmaq və şərh yazmaqdan ibarət deyil”

“Ə.Kərimlinin ətrafında olan çoxları digər müxalifət partiyalarını müzakirə etməkdən imtina edən zaman dışlanıb” deyə qeyd edən R.Nurullayev əlavə edir ki, Kərimli özünü, nəyin bahasına olursa-olsun, müxalifətdə birinci görüb və bu yerə iddialı olanları da min hiyləylə ləkələyib, sıradan çıxarmaq istəyib: “Bu adamda qlobal düşüncə deyilən təfəkkür tərzi yoxdur. Ancaq xırdaçılıq, cılız və iyrənc oyunlar üzərində qurulan siyasət. Bütöv milli və qlobal siyasət “like” etmək, paylaşmaq və şərh yazmaqdan ibarət deyil. Opponentlərini sıradan çıxarmaq üçün oyunlar qurmaq da deyil. O zaman olduğu kimi, bu gün də sözdə iqtidarla, əməldə isə müxalifətlə mübarizə aparır. Niyə? Bu, o zaman labüd idi ki, Azərbaycanda bərabər güclü partiyalar və onların hakimiyyətə gəlmək üçün bərabər şansları olsun. Amma axı bizdə güclü müxalif partiyalar yoxdur və olanlar da gücsüz duruma düşüb”.

Beləliklə, Ə.Kərimlinin düşərgədəki simasızlığını tam şəkildə açıb ortaya qoyan Nurullayev, əslində, demək istəyib ki, o, heç bir halda, AXCP adını ona peşkəş verməyəcək. Əksinə, sona qədər bu ad uğrunda açıq savaşını aparacaq. Hər halda, bu məsələnin hər iki AXCP-yə ciddi təsiri olacaq. Necə deyərlər, Allah ya R.Nurullayevə, ya da Ə.Kərimliyə verəcək...

***Rövşən RƏSULOV***

# TOLERANT CƏMİYYƏTDƏ MULTİKULTURALİZM

***Dünyanın çoxmillətli dövlətlərindən olan Azərbaycan dövləti hər bir azərbaycanlının vətənidir. Azərbaycan Respublikasında kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub-saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Ölkəmizdə müxtəlif dinlərə, millətlərə, etnik azlıqlara məxsus xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayır. Dövlət onlara öz adət-ənənələrini və dillərini qoruyub-saxlamaq üçün bütün şəraiti yaradıb. Etnik azlıqlara da tam bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir.***

Etnik azlıqların kompakt yaşadıqları yerlərdə ümumtəhsil məktəblərinin ibtidai siniflərində doğma dil tədris olunur: müvafiq dillərdə tədris proqramları və dərs vəsaitləri, folklor və şeir məcmuələri, bədii ədəbiyyat nəşr olunur, qəzet və jurnallar çıxır, dövlət milli teatrları və bədii özfəaliyyət kollektivləri fəaliyyət göstərir. Beləliklə, respublikada müxtəlif etnik qrupların mövcudluğu üçün bütün mümkün şərait yaradılmışdır. Lakin burada bir məqamı qeyd etmək lazımdır ki, bizim ölkəmizdə mədəni müxtəliflik etnik azıqların, sadəcə, cəmlənməsi kimi başa düşülmür, Azərbaycan ümummilli həmrəyliyin inkişafı üçün əlverişli mühitdir. Başqa sözlə, etnik, dini və digər mənsubiyyətindən asılı olmayaraq, ərazisində məskunlaşan hər bir vətəndaş Azərbaycanın sərvətidir.

Multikulturalizmin alternativinin özünütəcrid olduğunu bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Azərbaycanda yaşayan xalqlar əsrlər boyu multikulturalizm şəraitində yaşayıblar".

Azərbaycan isə son illərdə bu sahədə aparılan müzakirələrin, sadəcə, iştirakçısı qismində çıxış etmir, eyni zamanda, bəşəriyyətin gələcək inkişafı naminə mədəniyyətlərarası, konfessiyalararası və sivilizasiyalararası dialoq üçün real imkan və mexanizmlərin müəyyən edilməsinə xidmət göstərən bu cür müzakirələrin təşəbbüskarı və təşkilatçısı missiyasını yerinə yetirir.

2011-ci ildən başlayaraq Bakıda keçirilən humanitar forumlar müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobal miqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisə kimi daxil olmuşdur.

Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında, heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır və bu məqama xarici mətbuat da xüsusi diqqət yetirir. Amerika Birləşmiş Ştatlarının nüfuzlu "Washington Times" qəzetinin onun haqqında dərc etdirdiyi məqalədə oxuyuruq: "Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva müsəlman dünyası qadınları üçün ən yaxşı nümunədir!"

Multikulturalizm bir siyasət kimi, öz mahiyyəti baxımından, tolerantlıqla da sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur ki, bu da insanların gələcək mədəni birliyi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə əlaqədardır.

Ölkə daxilində, eləcə də, beynəlxalq arenada mədəniyyətlərarası ünsiyyətin tarazlı şəkildə qurulmasında, üç dini dövrdən - zərdüştilik, xristianlıq və islamdan keçən və öz şüuruna bunları həkk etdirən Azərbaycan xalqının tarixi yaddaşı vacib rol oynayır. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli qurulmuşdur. Dövlət-din münasibətlərinin müasir Azərbaycan modeli çərçivəsində bütün dinlər qanun qarşısında bərabər status almışlar. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir.

Təsadüfi deyil ki, bu gün bütün dünyanın böyük din xadimləri də özünü artıq tolerantlığın ideoloji mərkəzi və praktik təcəssümü kimi təsdiq etmiş olan Bakıda toplaşır və dinlərin dialoqu çərçivəsində sivilizasiyaların qarşılıqlı anlaşması istiqamətində səmərəli iş aparırlar.

Bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların baş keçidi deyil, habelə, siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da qovuşduğu məkan, qarşılıqlı tamamlanma və vəhdət rəmzidir.

Ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini uğurla həyata keçirir. Fondun "Dini tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Bakıdakı Pravoslav kilsəsinin, məscidlərin yenidən qurulması da tamamlanmışdır. Dünya yəhudilərinin nüfuzlu təşkilatlarından olan "Or-Avner" Beynəlxalq Fondu ilə əməkdaşlıq sazişi çərçivəsində Mehriban xanım Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunun Əbilov yaşayış sahəsində Azərbaycanda yaşayan yəhudi uşaqları üçün orta məktəb, uşaq bağçası, yəhudi tarixi və mədəniyyəti muzeyindən ibarət kompleks tikilmişdir. Heydər Əliyev Fondunun prezidentinin rəhbərliyi altında Bakıda keçirilmiş "Evrovizion-2012" musiqi yarışması da Azərbaycanın yüksək mədəniyyətə, tolerant dəyərlərə malik ölkə kimi tanıdılması, musiqimizin, incəsənətimizin təbliği baxımından müstəsna əhəmiyyətli tədbir olmuşdur. Azərbaycanın Birinci Xanımının rəhbərliyi altında musiqi festivalına hazırlıq işləri yüksək səviyyədə aparılmış, bu məqsədlə bütün lazımi tədbirlər görülmüşdür. Bu tədbir fonunda Azərbaycan bir daha öz mədəniyyəti ilə sivil dəyərlərə yaxın olduğunu göstərmək imkanı qazanmışdır. "Evrovizion-2012"-nin Azərbaycanda keçirilməsi milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlər müstəvisində özünəməxsus yer tutmasında mühüm hadisə olmuşdur.

Heydər Əliyev Fondunun dəstək verdiyi daha bir istiqamət də Azərbaycan elminin inkişafı və dünya elminə inteqrasiyasıdır. Müasir qlobal problemlərlə üzləşən elm ölkənin inkişafını sürətləndirməli, insanların təhlükəsizliyinə və normal yaşayışına öz payını verməlidir. Yeni elm sahələrindən biri də keçən əsrin 70-ci illərində formalaşan və 2002-ci ildən UNESCO-nun prioritetlərindən biri hesab olunan bioetika elmidir. Yarandığı zaman əsas ideya ondan ibarət idi ki, yer üzündə həyatın qorunması probleminin həlli üçün humanitar və bioloji elmlər öz səylərini birləşdirməlidirlər. Planetimizdə bioetikanın bərqərar olması yüksək biotibbi texnologiyalar sahəsindəki inqilabi nailiyyətlərlə, yeni texnologiyaların insan sağlamlığına və bəşəriyyətin gələcəyinə gətirən potensial risklərin qiymətləndirilməsi ilə şərtlənmişdir. 2002-ci ildən bioetika UNESCO-nun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduqdan sonra o, tək elm sahəsi deyil, sosial bir instituta çevrilmişdir. Siyasətçilər bu gün onu qeyd edirlər ki, "bioetikanın və ona yaxın olan tibbi hüququn inkişaf dərəcəsi ölkənin demokratikləşməsinin əsas meyarıdır". 2005-ci ildə UNESCO "Bioetika və İnsan Hüquqları" Ümumi Bəyannaməsini qəbul edərkən, bioetika tarixində, ilk dəfə olaraq, üzv ölkələr və beynəlxalq ictimaiyyət bioetikanın əsas prinsiplərinə hörmətlə yanaşmağı və onları reallaşdırmağı üzərinə götürmüşlər. Bu gün UNESCO bəşəriyyətin etik və mənəvi həmrəyliyi olmadan sülhün əldə edilməsinin mümkünsüzlüyünü irəli sürərək, bütün ölkələri bioetika məsələləri üzrə beynəlxalq və mədəniyyətlərarası müzakirələrə cəlb etməyi qarşısında məqsəd qoyub. Nəticədə, bioetika üzrə xüsusi komitə və komissiyalar tək UNESCO-da deyil, bir çox nüfuzlu beynəlxalq və milli təşkilatlarda yaranıb və fəaliyyətdədir.

Önəmli bir məsələ də, xüsusi olaraq vurğulanmalıdır ki, biotibbi elmlərin tərəqqisi və ən yeni texnologiyaların insanın gündəlik həyatına tətbiqi ilə əlaqədar yaranan etik, tibbi, bioloji və hüquqi problemləri araşdıran, elmlərarası tədqiqat sahəsi olan və ənənəvi etikanı, hüquq, fəlsəfə, təbabət elementlərini özündə birləşdirən bioetika elminin mürəkkəb problemlərindən birini Azərbaycanda ilk dəfə elmi cəhətdən tədqiq edən ilk alim də, məhz ölkəmizin Birinci Xanımı Mehriban Əliyeva olmuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yazdığı "Evtanaziya və tibdə humanistlik problemi" və "Biz həyatı seçirik (Evtanaziya sosiologiya güzgüsündə)" kitabları bioetikanın ən aktual məsələlərindən biri hesab olunan evtanaziya probleminə həsr olunmuşdur. Mehriban xanım Əliyevanın təşəbbüsü nəticəsində, UNESCO-nun Beynəlxalq Bioetika Komitəsinin 18-ci sessiyasının Şərqi Avropada, ilk dəfə olaraq, Bakı şəhərində 2011-ci ilin may-iyun aylarında keçirilməsi bioetikanın Azərbaycanda daha da sürətlə inkişaf etməsinə təkan verdi və bu elm sahəsi üzrə çalışmaq istəyənlərin sayı bu gün artmaqdadır.

Heydər Əliyev Fondu respublikada insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsi prosesinə də töhfəsini verir. Mehriban xanım Əliyevanın son illərdə bir neçə dəfə amnistiya təşəbbüsü ilə çıxış etməsi yüksək humanizmin və insanpərvərliyin əyani təcəssümü olmuşdur.

Mehriban xanım Əliyeva nəcib əməllərinə görə çoxsaylı beynəlxalq mükafatlara, fəxri adlara, təltiflərə layiq görülmüşdür. Hələ 2005-ci ilin iyun ayında xeyriyyəçilik fəaliyyətinə, eləcə də, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsi sahəsində xidmətlərinə görə, Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni ilə təltif olunmuşdur.

Azərbaycanın Birinci Xanımı Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq, ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində xüsusi xidmətlərinə görə mükafata, həmçinin, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə, 2007-ci ilin mayında Rusiyada "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülmüşdür. Həmin il mayın 17-də isə Cenevrədə Dünya Səhiyyə Təşkilatının ali orqanı olan Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında Azərbaycanda səhiyyənin inkişafında, yeni xəstəxanaların açılmasında, onların müasir avadanlıqla təchiz edilməsində Mehriban xanım Əliyevanın gördüyü işlər xüsusi vurğulanmış və ona İhsan Doğramacı Ali Sağlamlıq Fondunun mükafatı təqdim edilmişdir.

Heydər Əliyev Fondunun prezidenti Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə də təltif olunmuşdur. Məhz bu fəaliyyətin nəticəsi olaraq, fondun prezidenti 2010-cu ildə iki mötəbər mükafata - Fransa dövlətinin "Şərəf Legionu" ordeninə və UNESCO-nun "Qızıl Motsart" medalına layiq görülmüşdür. Bununla yanaşı, fondun prezidenti "Türk Dünyasına xidmət" mükafatını, 2011-ci ildə isə Krans Montana Forumunun Qızıl medalını almışdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 19 fevral


## 23 yaş kiçik sevgilisi Naomi Kempbeli aldadır



Sevgililər gününü birlikdə keçirən Naomi Kempbel və Liam Peyn cütlüyü aldatma iddiaları ilə gündəmə gəlib. Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, 25 yaşlı musiqiçinin başqa bir modellə əlaqəsinin olduğu iddia edilir. Bildirilir ki, buna Kempbelin gənc sevgilisinə dediyi "Ciddi bir münasibət istəmirəm, sadəcə səninlə əyləncəli vaxt keçirirəm" sözləri səbəb olub. Qeyd edək ki, modelin 48 yaşı var. O, Liamdan 23 yaş böyükdür.

## Kitabı küçədə qoydu, 68 avro cərimələndi!



Parisdə bir qadın kitabını küçədə qoyub getdiyi üçün onu 68 avro məbləğində cərimələyiblər. Qadın daha sonra bu haqda sosial şəbəkələrdə məlumat verdiyi üçün pul cəzasını ləğv ediblər.

Lenta.ru saytı xəbər verir ki, Qvenel adlı qadın kitab mağazasından oxumaq üçün aldığı kitabı geri qaytarıb. Amma bu zaman oxunmuş kitablar üçün nəzərdə tutulan rəfi görmədiyi üçün kitabı kənar bir yerə qoyub. Bundan öncə qadın oxuduğu bir sıra kitabları sonradan mağazaya qaytarırdı. Amma bu dəfə kitabı yerə qoyduğu üçün polis onu saxlayıb. Fransız qadına zibili ictimai yerdə qoyub getdiyi üçün cərimə yazıblar. Xəbərdə qeyd olunur ki, Parisdə səkilərə siqaret kötüyü atanlar da analoji şəkildə cəzalandırılır. Radiostansiyanın xəbərinə görə, Qvinel baş vermiş insidentlə bağlı sosial şəbəkədə yazıb.

Hadisəyə media da reaksiya verəndən sonra yerli qurumlar işə qarışıblar və qadının cəriməsi ləğv olunub. Cərimə "yanlışlıq" olaraq qeydiyyata düşüb. Paytaxtın Tvitter səhifəsində isə hadisə ilə bağlı aşağıdakıları yazıblar: "Bu, yanlışlıqdır. Paris kitabları və kitabı paylaşanları sevir. Biz cəriməni ləğv edəcəyik".

## Özbəkistanda dinazavra bənzəyən heyvan skeleti tapılıb



Özbəkistanın Fərqanə vilayətinin sakini evini təmir edərkən zirzəminin altından dinazavra bənzəyən heyvan skeleti tapıb. AZƏRTAC xəbər verir ki, bu barədə Daşkənddə rus dilində çap olunan "Narodnoe slovo" qəzeti məlumat yayıb. Bildirilir ki, tapılan sümüklər göstərir ki, bu heyvanın güclü uzun ayaqları, iri başı, elastik onurğa sütunu, quyruğu və quş boğazına bənzər boynu olub. Skeletin tapıldığı ev Fərqanədəki çöllüklər abadlaşdırıldığı vaxt - 1969-cu ildə tikilib. Ev tikilən zaman lazimi tikinti qaydalarına əməl edilməyib və skelet o zaman tapılmayıb.

Qeyd edilir ki, faktın təsdiqlənməsi üçün ekspertlərin köməyinə ehtiyac var. Ancaq arxeoloqlar bunun elmi izahını verməlidirlər.

## "Mançester Yunayted" bu futbolçu üçün 80 milyon avrodan keçməyə hazırdır



Almaniyanın "Borussiya Dortmund" klubunun yarımmüdafiəçisi Ceydon Sanço "Mançetser Yunayted"in hədəfindədir. Xarici KİV-lərin yaydığı məlumatda deyilir ki, "qırmızı şeytanlar" 18 yaşlı gənc futbolçuya görə 80 milyon avrodan keçməyə hazırdır. "Mankunianlar" hətta bir neçə top klubu qabaqlayaraq rəsmi təklif göndəriblər. Transfer reallaşarsa, məbləğin 15 faizi "Mançester Siti"yə çatacaq. Çünki "şəhərlilər"in yetirməsi olan Sanço 2017-ci ildə "Borussiya Dortmund"a keçərkən klublar bu barədə razılığa gəliblər.

Qeyd edək ki, Ceydon Sançonun "Borussiya Dortmund" ilə müqavilə müddəti 2022-ci ilin yayınadək nəzərdə tutulub.

## "Bavariya" üç futbolçusu "Liverpul"a qarşı oynamayacaq



"Bavariya" klubunun üç futbolçusu UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsində "Liverpul" ilə keçiriləcək oyunda meydana çıxmayacaq. Xarici KİV-lərin yaydığı məlumata görə, Münxen təmsilçisi Ariyen Robben, Tomas Müller və Jerom Boatenqin xidmətlərindən yararlana bilməyəcək. Robben və Boatenq zədə, Müller isə diskvalifikasiya səbəbindən komandasına kömək edə bilməyəcək. Qeyd edək ki, komandaların arasında görüş fevralın 19-da Liverpuldakı "Enfild" stadionunda baş tutacaq.

## "Mançester Yunayted" Lukakunu satışa çıxarır?



İngiltərənin "Mançester Yunayted" klubu hücumçusu Romelu Lukakunu yay transfer pəncərəsində satmaq niyyətindədir. "Mançester Yunayted" Lukakunun satışından 85 milyon avro qazanc əldə etmək istəyir. Lukakunun satışından əldə olunan məbləğlə klub rəhbərliyi İtaliyanın "İnter" klubunun hücumçusu Mauro İkardini transfer etmək istəyir. Həmçinin klub Romelu Lukakunun əvəzinə alternativ olaraq "Yuventus"un futbolçusu Paulo Dibala və Portuqaliyanın "Benfika" komandasının hücumçusu Joao Feliksi transferini nəzərdən keçirir.

Qeyd edək ki, "qırmızı şeytanlar" Romelu Lukakunu 2017-ci ildə 84,7 milyon avro müqabilində İngiltərənin "Everton" klubundan transfer etmişdi. Lukaku "Mançester Yunayted"in heyətində 83 oyuna meydana çıxıb və 36 dəfə fərqlənib. 2018-ci ildə Rusiyada keçirilən dünya çempionatında Lukaku Belçika millisinin heyətində mundialın bürünc medallarına sahib olub. O, milli komandanın heyətində 79 oyunda 45 dəfə rəqib qapısına yol tapıb.

## UEFA Əliyarı VAR-la bağlı yarışa çağırıb



Aprelin 19-dan 26-dək Türkiyənin Antalya şəhərində UEFA tərəfindən 14-15 yaşlı oğlanlardan ibarət komandaların iştirakı ilə "Video Köməkçi Hakim" (VAR) sertifikat turniri keçiriləcək.

AFFA-nın saytında yer alan xəbərə görə, turnirin oyunlarını idarə edəcək hakimlərə sonda sertifikatlar təqdim olunacaq. 42 hakim və hakim köməkçisinin dəvət aldığı turnirdə ölkəmizi FİFA referisi Əliyar Ağayev, FİFA hakim köməkçiləri Akif Əmirəli və Zeynal Zeynalov təmsil edəcək.


## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə III kurs tələbəsi Əsgərova Ədilə Rauf qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi İskəndərova Fəridə Asif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Mustafazadə Səbinə Zəfər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


**BAŞSAĞLIĞI**

"Media" Qrupunun rəhbəri Bəhruz Quliyev "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**Pakizə Paşayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**